QARABAĞ AZƏRBAYCANDIR!



# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 211 (6175) 26 noyabr 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# İlham Əliyev: Kəlbəcər bizimdir! Qarabağ Azərbaycandır!

*Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*

Bax2



## Birinci vitse-prezident Mehriban Əliyeva Kəlbəcərin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Kəlbəcər rayonunun işğaldan azad olunması münasibətilə rəsmi “Instagram” səhifəsində paylaşım edib. AZƏRTACpaylaşımı təqdim edir: “Hörmətli həmvətənlər!**

Sizi əlamətdar hadisə - Kəlbəcər rayonunun işğaldan azad olunması münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Qoy Şanlı Qələbəmiz hər evə, hər ailəyə bol sevinc, təbəssüm, səadət, ölkəmizə sülh və əmin-amanlıq gətirsin! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabag? Azərbaycandır!”



## “Fransa təcavüzkar Ermənistan ilə işğala məruz qalmış Azərbaycan arasında fərq qoymur və qərəzli surətdə işğalçı Ermənistanı müdafiə edir”

Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Fransa Senatında Dağlıq Qarabağdakı qondarma qurumun tanınması məsələsinə baxılması ilə bağlı bəyanat yayıblar. *Bax 8*



## Əli Əhmədov: “Beynəlxalq layihə hazırlanmasa, yoxsul insanların peyvənd əldə etməsi çətin olacaq”

*Bu gün dünyada insanlar pandemiyadan ciddi şəkildə əziyyət çəkir, pandemiya insan sağlamlığına zərər vurmaqla yanaşı, ölkələrin iqtisadiyyatına və sosial...* *Bax 5*



## Kəlbəcərin azad edilməsi ölkəmiz üçün yeni imkanlar açacaq



*Bax 5*

## Rəcəb Tayyib Ərdoğan: Qarabağdakı 30 illik ədalətsizliyə son qoyuldu

Qarabağdakı 30 illik ədalətsizliyə son qoyuldu. Ölkəmizin dəstəyi sayəsində Azərbaycan torpağı olan Qarabağda erməni işğalı sona çatıb, uzunmüddətli...



## “Fransa Senatının bu qətnaməsi Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyil”

Prezidentin köməkçisi Hikmət Hacıyev Fransa Senatında qondarma “Dağlıq Qarabağ respublikasının” tanınmasına dair qətnamə layihəsinin qəbuluna münasibət bildirib. AZƏRTAC xəbər verir ki, Hikmət Hacıyevin bununla bağlı şərhində deyilir:... *Bax 7*

## Emosiyaları bir kənara qoymaq və atəşkəsin saxlanması üçün nə mümkündürsə, etmək lazımdır



*Bax 5*

## “France-24” kanalı Kəlbəcərin azad edilməsi haqqında reportaj yayımlayıb



## Moskvadan qurtuluş umanlar



*Bax 13*

# İlham Əliyev: Kəlbəcər bizimdir! Qarabağ Azərbaycandır!

## *Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. AZƏRTAC müraciəti təqdim edir.***



> *"Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə və həyat qayıdacaqdır"*

Prezident İlham Əliyevin xalqa müraciəti

-Əziz həmvətənlər. Bu gün Kəlbəcər rayonu işğaldan azad olundu. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Əziz kəlbəcərlilər, gözünüz aydın olsun! Doğma rayonunuz işğaldan azad olundu. Bu günü Azərbaycan xalqı uzun illər ərzində səbirsizliklə gözləyirdi. Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal edilmişdir. Günahsız insanlar öz dədə-baba torpağından vəhşicəsinə qovulmuşdur. Kəlbəcərin tarixi abidələrinə, təbiətinə böyük ziyan vurulmuşdur.

Kəlbəcər rayonunun işğal altına düşməsi böyük faciə idi. Hər bir rayonun işğal altına düşməsi böyük faciə idi. 1992-ci ilin may ayında Şuşa və Laçın rayonlarının işğal altına düşməsindən sonra Kəlbəcərin də işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi əlaqə yaratdı. Hər kəs yaxşı bilir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan Respublikası ilə sərhədi yox idi. Ermənistanı Dağlıq Qarabağdan Laçın rayonu ayırırdı, Laçın dəhlizi ayırırdı. Laçın, Şuşa və ondan sonra Kəlbəcər rayonlarının işğal altına düşməsi böyük ərazidə Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratdı və düşmənin məqsədi məhz bundan ibarət idi. Kəlbəcərin işğal altına düşməsindən sonra demək olar ki, Ermənistanla Dağlıq Qarabağ arasında bir çox yollar vasitəsilə əlaqə yaradıldı və ilk növbədə, silahlar, texnikalar, canlı qüvvə göndərilmişdir. Eyni zamanda, Ermənistanın sonrakı işğalçılıq siyasətinə də bu, böyük üstünlüklər təmin etmişdir.

Kəlbəcər rayonunun işğal altına düşməsi o vaxt hakimiyyətdə olmuş Azərbaycan Xalq Cəbhəsinin birbaşa məsuliyyətidir. Bütövlükdə torpaqlarımızın işğal altına düşməsində əsas günahkar Azərbaycan Xalq Cəbhəsidir. Çünki əgər 1992-ci ildə onlar qanunsuz yollarla hakimiyyətə gəlməsəydilər, əgər dövlət çevrilişi etməsəydilər, bəlkə də, torpaqlarımız işğal altına düşməyə bilərdi. Əlbəttə ki, tarixə qayıdıb nə ola bilərdi, nə olmaya bilərdi demək çox çətindir. Ancaq hər halda, torpaqlarımızın işğal altına düşməsində onların birbaşa iştirakı, əli var və bu məsuliyyəti onlar daşıyır. Çünki 1992-ci ilin yaz aylarında hakimiyyət uğrunda mübarizə pik həddə çatmışdı. Azərbaycanda daxili çəkişmələr baş alıb gedirdi, xaos, böhran yaranmışdı, siyasi böhran yaranmışdı və hakimiyyət uğrunda mübarizə çox ciddi fəsadlara gətirib çıxarmışdı. Ermənistan isə bundan istifadə edərək torpaqlarımızı zəbt etməyə davam edirdi. Şuşa və Laçının işğal altına düşməsindən sonra vəziyyət kritik həddə çatdı. Bundan istifadə edən Azərbaycan Xalq Cəbhəsi dövlət çevrilişi edərək hakimiyyətə gəldi. Ancaq ondan sonra nə oldu? Ondan sonra bütün səylərini öz laxlamış hakimiyyətini möhkəmləndirmək, ölkəmizdə repressiyalar təşkil etmək, senzuranı tətbiq etmək və digər antidemokratik addımlar atmağa yönəltdi. Torpaqlarımız işğala məruz qalırdı, mülki əhalimiz öz dədə-baba torpaqlarından didərgin salınırdı, Azərbaycan Xalq Cəbhəsi, onun rəhbərliyi ancaq bir məqsədi güdürdülər ki, öz ciblərini doldursunlar, öz yaxın adamlarını vəzifələrə təyin etsinlər və öz hakimiyyətinin ömrünü uzatsınlar. Kəlbəcərin işğal altına düşməsi bax, bu çirkin addımların nəticəsi idi. Başqa cür ola da bilməzdi. İndi gənc nəsil xatırlamır, ancaq bilməlidirlər ki, o vaxt Azərbaycana kimlər rəhbərlik edirdi, hansı bilik sahibləri, hansı səriştə sahibləri. O adamların heç bir təcrübəsi yox idi. O adamlar - o vaxt rəhbərlikdə təmsil olunmuş adamlar, yüksək postlar tutmuş adamlar bir gün belə heç bir idarəyə, heç bir kiçik bir müəssisəyə rəhbərlik etməmişdilər. Onlar ölkəni, xüsusilə böhranlı vəziyyətdə olan ölkəni necə idarə edə bilərdilər? Amma onların vəzifə hərisliyi, tamahı, iştahası, görməmişliyi Azərbaycanı bax, bu vəziyyətə gətirib çıxardı. Baxın, görün, Azərbaycanı o vaxt kimlər idarə edirdi?! Parlamentin sədri kiçik elmi işçi idi, özü də uğursuz bir elmi işçi idi. Dövlət katibi - komsomoldan çıxmış karyerist, özü də sonrakı mərhələdə öz liderinə xəyanət etmiş, onun kürsüsünə, kreslosuna göz dikmiş, onun ölümünə hamıdan çox sevinmiş və ondan sonrakı həyatını, sadəcə olaraq, xarici dairələrin idarəsi altında keçirən bir adam. Onlardan hansı idarəçilik gözləmək olardı? Onlardan hansı vətənpərvərlik gözləmək olardı? Hansı peşəkarlıq gözləmək olardı? Xarici işlər naziri. Heç bir dildə danışa bilməyən təsadüfi bir adam, fizika müəllimi. Hansı ki, ümumiyyətlə, başa düşmürdü xarici münasibətlər nədir, beynəlxalq norma, prinsiplər nədir? Sadəcə olaraq, turist kimi orabura gedirdi və ağzına gələni danışırdı. Müdafiə naziri, riyaziyyat müəllimi. Riyaziyyat müəllimi müdafiə naziri ola bilərmi? Məhz bu riyaziyyat müəllimi Şuşanı düşmənə təhvil verdi. Deyirdi ki, Şuşa əldən gedərsə, başıma güllə vuracağam. Bu günə qədər orada-burada sülənir. Şuşanı biz qaytarmışıq, biz. Siz satmısınız onu, xalq xainləri. Daxili işlər naziri. Quldurluq baş alıb gedirdi, jurnalistlər həbs olunurdu, döyülürdü, canlı efirdə maşınların yük yerinə atılırdı. Bu idi Azərbaycan Xalq Cəbhəsinin rəhbərləri. Baş nazir elmi kommunizm üzrə kiçik elmi işçi idi. Baxın, bu təzadlara baxın. Ölkə iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qabağa aparmağa məsul olan adam elmi kommunizm üzrə kiçik elmi işçi idi. Hansı idarəçilik, hansı islahatlar, hansı müdafiə qabiliyyəti təmin oluna bilərdi? Bizim dərdimiz və faciəmiz budur ki, təsadüfi adamlar hakimiyyətə gəldilər, hakimiyyəti qanunsuz yollarla qəsb etdilər və ölkəmizi uçuruma apardılar.

Əgər Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə gəlməsəydi, Azərbaycan nəinki öz qalan torpaqlarını itirəcəkdi, ümumiyyətlə, dövlətçilik əldən gedəcəkdi. Öz laxlamış hakimiyyətini saxlamaq üçün vətəndaş müharibəsi başlamışdılar. Öz əsgərlərini əsir götürmüşdülər. Gəncəni bombalamışdılar. Bunu heç kim unutmasın! Bilməyənlər bilsinlər və gənc nəsil bunu bilsin, kim bizi bu bəlaya saldı? Kim bu bəlanın səbəbkarıdır? Kim bir milyon insanın ağır vəziyyətə düşməsinin səbəbkarıdır? O vaxtkı Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti. Əslində, indi paralel aparsaq, onların obrazı elə bil kollektiv Paşinyandır - savadsız, biliksiz, iradəsiz, qorxaq, fərari, idarəetmədə heç bir təcrübəsi olmayan, xarici dairələrin təsiri altında olan, onların əli ilə idarə olunan və öz ölkəsini məhv edən. Bax, kollektiv Paşinyandır onlar. Onları tanımayanlar, əgər onlar haqqında hər hansı bir təsəvvür yaratmaq istəsələr, Paşinyana baxsınlar. Onun addımlarına baxsınlar və onun simasında o vaxtkı Azərbaycan Xalq Cəbhəsinin və ölkə rəhbərliyinin simasını görəcəklər.

Kəlbəcər bizim qədim torpağımızdır. Qədim Azərbaycan torpağıdır. Kəlbəcər ərazi baxımından bizim ən böyük rayonlarımızdan biridir. Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var. Bu, heç kəsə sirr deyil. Sadəcə olaraq, erməni "tarixçiləri" və saxtakarlar qədim alban kilsələrini saxtakarlıqla erməniləşdiriblər, öz yazılarını oraya əlavə ediblər və bu kilsələri özününküləşdiriblər. Tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, 1830-cu illərdə çar Rusiyası alban kilsəsini ləğv etdi, alban kilsəsinin bütün mülkiyyətini erməni Qriqorian kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar. Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq onların başlıca vəzifəsi idi. Amma biz imkan vermədik.

**Ardı Səh. 3**

# İlham Əliyev: Kəlbəcər bizimdir! Qarabağ Azərbaycandır!

## *Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*

**Əvvəli-Səh-2**



Azərbaycanda bu məsələ ilə bağlı kifayət qədər böyük elmi baza var, əsərlər var. Bu əsərlər nəinki elm ictimaiyyətinə, bütövlükdə dünya ictimaiyyətinə çatdırılır və çatdırılmalıdır. Qafqaz Albaniyası böyük dövlət olub. Onun paytaxtı Qəbələ şəhəri olub. Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir. Biz bu kilsələri qoruyuruq. Mən bu kilsələrdə dəfələrlə olmuşam, Şəki şəhərində, Qəbələ rayonunda, Udi kilsəsində. Bildiyiniz kimi, müharibə dövründə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Nic qəsəbəsində qədim Udi Qafqaz Albaniyası kilsəsinin təmir işləri yekunlaşdı və bu kilsənin açılışı oldu. Biz bu kilsələri mədəni sərvətimiz kimi qoruyuruq. Ona görə, heç kim narahat olmasın. Bu kilsələr bundan sonra da dövlət tərəfindən qorunacaq. Azərbaycanın multikulturalizmlə, dinlərarası münasibətlə bağlı apardığı siyasət bütün dünya tərəfindən, dünya liderləri tərəfindən təqdirlə qarşılanır. Narahatlıq ifadə etmək istəyən bəzi Qərb dairələri bizim dağılmış məscidlərə baxsınlar, Ağdam, Şuşa, Zəngilan, Cəbrayıl, Füzuli məscidlərinə və digər məscidlərə. O məscidlər ya dağıdılıb, ya da ki, təhqir edilib, donuzlar saxlanılıb. Niyə bu, narahatlıq doğurmurdu? Otuz il bu barədə niyə heç kim məsələ qaldırmırdı, bizdən başqa? Mən bu məsələni dəfələrlə beynəlxalq tribunalardan, beynəlxalq kürsülərdən, xarici həmkarlarımla təmaslar əsnasında qaldırmışdım. Nə üçün buna heç kim narahatlıq ifadə etmirdi? Nə üçün bu məsələ ilə bağlı heç kim beynəlxalq heyət göndərmək istəmirdi? Bu suallara cavab istəyir Azərbaycan xalqı. Biz bu cavabı bilirik. Ona görə bir daha demək istəyirəm, bizim işimizə qarışmaq istəyən, yaxud da ki, nədəsə ittiham etmək istəyən getsin, ilk növbədə, güzgüyə baxsın.

***"Kəlbəcər rayonunun işğal altına düşməsi o vaxt hakimiyyətdə olmuş Azərbaycan Xalq Cəbhəsinin birbaşa məsuliyyətidir. Bütövlükdə torpaqlarımızın işğal altına düşməsində əsas günahkar Azərbaycan Xalq Cəbhəsidir. Çünki əgər 1992-ci ildə onlar qanunsuz yollarla hakimiyyətə gəlməsəydilər, əgər dövlət çevrilişi etməsəydilər, bəlkə də, torpaqlarımız işğal altına düşməyə bilərdi"***

Kəlbəcər rayonu füsunkar təbiətə, zəngin mədəni irsə malikdir. Bizim bir neçə böyük çayımızın mənbəyi Kəlbəcər rayonundadır. Onların arasında ən böyüyü Tərtər çayıdır, uzunluğu 200 kilometrdir. Bazarçay, Xaçınçay. Onların uzunluğu təqribən 200 kilometrə yaxındır. Bu çaylar böyük ərazini qidalandırır. Ancaq mənfur düşmən bizi bu imkanlardan məhrum etdi. Çünki Tərtər çayı 1970-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Sərsəng su anbarına axıdılır. Sərsəng su anbarı o vaxt o məqsədlə tikilmişdi ki, Qarabağın Aran zonasında yerləşən 6-7 rayonda suvarma işləri təmin edilsin. O vaxt Sərsəng su anbarı inşa ediləndən sonra heç vaxt suvarılmayan 100 min hektar ərazi artıq suvarılmağa başlamışdır. Ağdam, Goranboy, Yevlax, Bərdə, Tərtər və digər rayonlar oradan qaynaqlanırdı. Mənfur düşmən suyumuzu kəsdi. Yayda suyu kəsirdi, qışda buraxırdı və su basırdı bütün torpaqları. Bax, bizə qarşı ekoloji terror təşkil edilirdi. Ermənistan terror dövlətidir, bu terrorun bir çox əlamətləri var. Tarixi abidələrimizin dağıdılması, mülki əhaliyə qarşı törədilən soyqırımı, meşələrimizin qırılması, çaylarımızın məcrasının dəyişdirilməsi və digər əlamətlər var. Baxın, Kəlbəcərdən başlayan Tərtər çayının suyu Sərsəng su anbarında və ondan sonra Suqovuşan su anbarında yığılırdı, işğalçının maraqlarını təmin edirdi, bizə isə su gəlmirdi. Biz Suqovuşan qəsəbəsini alandan sonra indi artıq suyun verilməsi başlamışdır və 100 min hektara suyun verilməsi nəzərdə tutulur.

Kəlbəcər rayonunda böyük meşə əraziləri vardır. Kəlbəcər rayonunda 24 min hektar meşə ərazisi var. Bu, böyük sərvətimizdir. Mənfur düşmən bu meşələri qırıb, talayıb, satıb. Görün, son günlər ərzində onlar hansı çirkin işlərlə məşğuldur, meşələri yandırırlar ki, ekoloji faciə, fəlakət yaratsınlar. Bu oğrular meşələri qırırlar, aparırlar ki, Ermənistanda satsınlar. Evləri yandırırlar, hansı ki, o evləri onlar tikməyiblər. Onlar kəlbəcərlilərin evlərinə giriblər, soxulublar, orada yaşayıblar. Məktəbləri yandırırlar, apara bilmədikləri ev heyvanlarını öldürürlər. Görün, biz kimlərlə, hansı vəhşilərlə üz-üzə idik! Mən bir daha deyirəm və hər dəfə deyəcəyəm, bizim Qələbəmiz təkcə Ermənistan dövləti üzərində əldə edilmiş qələbə deyil, biz erməni faşizmini məhv etdik.

Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcərdə kənd təsərrüfatı inkişaf edəcək, xüsusilə heyvandarlıq. Bizim orada böyük otlaq sahələrimiz var. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları var. Düşmən bu ehtiyatları vəhşicəsinə istismar edib. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb. İndi o görüntülər var, hər kəs görə bilər. Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə və həyat qayıdacaqdır.

Kəlbəcərdə mənfur düşmən digər cinayət də törədib, qanunsuz məskunlaşma aparıb. Həm Ermənistan ərazisindən qanunsuz yollarla orada insanlar məskunlaşıb, həm də xarici ölkələrdən. Bu isə hərbi cinayətdir və Cenevrə Konvensiyasına görə hərbi cinayət sayılır. Biz düşməni məsuliyyətə cəlb edəcəyik, cavab verəcəkdir, bütün hərbi cinayətlərə görə, bütün dağıntılara görə. Mən Ağdam şəhərində olarkən bir salamat bina tapmadım, Füzulidə də həmçinin, Cəbrayılda da həmçinin. Hər tərəfi dağıdıblar, elə bil ki, vəhşi qəbilə keçib oradan.

Biz isə qurub-yaradanıq. Biz bu şəhərləri, bu rayonları yenidən dirçəldəcəyik. Bu rayonların bərpası ilə bağlı böyük planlarımız var. Artıq, bu planlar reallaşır, infrastruktur layihələri icra edilməyə başlayır. Şuşaya yeni yolun çəkilişi artıq başlanmışdır. Sovet vaxtında Şuşaya getmək üçün bir yol var idi - Ağdamdan Xankəndiyə, oradan da Şuşaya. İndi biz Füzuli rayonundan yeni yol çəkirik. Bu yol Xocavənd rayonunun bir hissəsindən keçəcək. Göstəriş vermişəm ki, bu, tezliklə təmin edilsin. Halbuki bu, böyük işdir, orada yol olmayıb və meşələrin içi ilə yol salınır, dərələr, təpələr, çox ağır relyef var orada. Amma biz bunu edəcəyik. Dəmir yollarını bərpa edəcəyik. O cümlədən, Naxçıvan Muxtar Respublikasına gedən dəmir yolunun bərpası ilə əlaqədar artıq ilkin göstərişlər verilmişdir. Bərdə-Ağdam dəmir yolunun bərpası ilə əlaqədar artıq praktiki addımlar atılmışdır. Ağdam rayonunun bərpası və gələcəkdə orada yaşayacaq insanların rahatlığı üçün bu yol mütləq olmalıdır. Yəni, bütün bu işlər planlı şəkildə aparılacaq və Azərbaycan vətəndaşları görüləcək işlərlə bağlı müntəzəm olaraq məlumatlandırılacaqdır. Bütün işləri biz planlı şəkildə etməliyik.

*Ardı Səh. 4*

# İlham Əliyev: Kəlbəcər bizimdir! Qarabağ Azərbaycandır!

## *Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*

**Əvvəli-Səh-3**

Bir daha demək istəyirəm, ilk növbədə, dəymiş bütün ziyan beynəlxalq ekspertlərin iştirakı ilə hesablanacaq. Ondan sonra məhkəmə iddiaları. Ondan sonra şəhərlərimizin, kəndlərimizin baş plan əsasında yenidən qurulması, kənd təsərrüfatı, digər infrastruktur layihələri, su, işıq ilə əlaqədar lazımi tədbirlər. Ondan sonra yollar. Biz düşməni Şuşadan qovanda oraya gedən su xəttini sıradan çıxarıb. İndi Şuşada su yoxdur. Bax, budur bu düşmən.

Bizim əsgərlərimiz görəndə ki, Ağdam rayonunun bir kəndində erməni əhalisi vaxtında çıxa bilməyib, onlara çıxmaq üçün şərait yaradıblar. Onlara söz deyən olmayıb. Amma mənfur düşmən bizim meşələrimizi yandırır, evlərimizi yandırır, su xəttini sıradan çıxarıb. Hesab edir ki, bu, bizi dayandıracaq? Biz istənilən yerə su xətti çəkmişik - ucqar dağlara çəkmişik, dağ kəndlərinə çəkmişik. Hamısını bərpa edəcəyik, hamısını. Artıq müvafiq göstərişlər verilibdir və əminəm ki, biz bu işləri vaxtında görəcəyik.

Düşmən Kəlbəcərə yeni eybəcər bir ad verib. Onlar "Dağlıq Qarabağ respublikası"nın xəritələrini düzəltmişdilər. Hanı o xəritələr? Hamısı məhv oldu. O xəritələr, sadəcə olaraq, kağız parçasıdır. Həm Dağlıq Qarabağ Muxtar Vilayətinin bütün ərazisini, Şuşanı, eyni zamanda, ətrafda yerləşən bütün 7 rayonu da aid etmişlər "Dağlıq Qarabağ respublikası"na. Bu xəritələri dərc edirdilər, dərsliklərə salmışdılar, sərgilərdə nümayiş etdirirdilər. Bu xəritələri onlar elə təqdim edirdilər ki, budur "Dağlıq Qarabağ respublikası". İndi nə qalıb o xəritələrdə? Heç nə. Azərbaycan öz ərazi bütövlüyünün bərpası istiqamətində lazımi addımlar atıbdır.



***"O vaxtkı Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti. Əslində, indi paralel aparsaq, onların obrazı elə bil kollektiv Paşinyandır - savadsız, biliksiz, iradəsiz, qorxaq, fərari, idarəetmədə heç bir təcrübəsi olmayan, xarici dairələrin təsiri altında olan, onların əli ilə idarə olunan və öz ölkəsini məhv edən. Bax, kollektiv Paşinyandır onlar"***

Mən bir daha danışıqlar dövrünə qayıtmaq istəyirəm. O vaxt dəfələrlə mənə deyilirdi ki, münaqişə yalnız sülh yolu ilə həll olunmalıdır. Deyə bilərəm ki, bütün beynəlxalq təşkilatlar, təmasda olduğum bütün böyük dövlətlərin liderləri dəfələrlə deyirdilər ki, münaqişənin hərbi həlli yoxdur. Bu, ifadələr açıq mətbuatda da var. Mən nə deyirdim? Deyirdim ki, var! Deyirdim ki, lazım olsa torpaqlarımızı hərbi yolla azad edəcəyik. Deyirdim ki, müharibə heç zaman istisna olunmur. Danışıqlar dövründə müxtəlif mərhələlərdə dəfələrlə təklif irəli sürülürdü ki, Azərbaycan tərəfi müharibə yolundan imtina etsin. Mən heç vaxt buna razılıq vermirdim. Ondan sonra məni ittiham etməyə başlayırdılar ki, İlham Əliyev müharibəyə başlamaq istəyir. Mən deyirdim ki, məsələni sülh yolu ilə həll etmək istəyirəm. Amma həll etmək istəyirəm. Ermənistan nə istəyirdi? Status-kvonu saxlamaq, əbədi etmək. Hesab edirdi ki, əgər 26-27 il ərzində buna nail olubsa, deməli, bundan sonra da nail olacaq. Hesab edirdilər ki, onların havadarları daim onları müdafiə edəcəklər, onların arxasında duracaqlar, onların əvəzinə müharibə aparacaqlar. Onlar, ümumiyyətlə, hesab edirlər ki, bütün dünya bunlara borcludur. Onlar bu ziyanlı və xəstə təfəkkürlə öz ölkəsini idarə etmək istəyirlər ki, kimsə gəlməlidir, bunlara mütləq kömək göstərməlidir. Bəs, siz özünüz nəyə qadirsiniz? Əgər hər zaman kiminsə ətəyindən yapışıb hansısa imtiyaz umursunuzsa, bəs, özünüz nəyə qadirsiniz? Bax, bu təfəkkür onların cəmiyyətini də demək olar ki, yanlış istiqamətə aparıb. Bu gün də hamıdan narazıdırlar. Bu gün də hamıya qarşı iddialar irəli sürürlər ki, nə üçün bizi heç kim müdafiə etmir. Sizi kim müdafiə etməlidir? Siz müstəqil ölkəsiniz, - əgər belə demək mümkündürsə, - müstəqil ölkə kimi də yaşayın, bu, birincisi. İkincisi, siz başqasının torpağını zəbt etmisiniz. Bir milyon insanı evsiz-eşiksiz qoymusunuz. Bütün binaları, evləri, şəhərləri dağıtmısınız. Siz özünüzü vəhşilər kimi aparmısınız. Haqq-ədalət sizin tərəfinizdə deyil, beynəlxalq hüquq sizin tərəfinizdə deyil, tarixi həqiqət sizin tərəfinizdə deyil. Amma hesab edirdilər ki, bu torpaqları əbədi saxlayacaqlar. Hesab edirdilər ki, vaxt keçəcək, nəsillər dəyişəcək. Azərbaycan xalqı bunu unudacaq, bu vəziyyətlə barışacaq. Səhv etdilər. Heç vaxt biz bu vəziyyətlə barışmaq fikrində deyildik. Mən Prezident kimi bu illər ərzində əlimdən gələni edirdim ki, Dağlıq Qarabağ məsələsi daim gündəlikdə olsun, özü də daim gündəliyin mərkəzində olsun. Həm ölkə daxilində vətənpərvərlik, milli qürur, həmrəylik hissləri daha da yüksək səviyyəyə qalxsın. Həm beynəlxalq müstəvidə daim bu məsələ gündəlikdə olsun. Hər kəs bilsin, həqiqət nədən ibarətdir, hər kəs bilsin, təcavüzkar kimdir, zərərçəkmiş tərəf kimdir və biz buna nail olduq. İndi dünyada hər kəs bunu bilir. Əgər Vətən müharibəsi dövründə xarici mətbuata diqqət yetirsək, görərik ki, əlbəttə, qərəzli, islamofob, anti-Azərbaycan, ermənipərəst məqalələr və reportajlar üstünlük təşkil edir. Ancaq, eyni zamanda, əvvəlki dövrdən fərqli olaraq bir çox obyektiv, həqiqəti əks etdirən reportajlar, məqalələr də dərc edildi. Deyə bilərəm ki, biz informasiya müharibəsində qələbə qazandıq. Biz döyüş meydanında qələbə qazandıq, informasiya məkanında qələbə qazandıq, siyasi müstəvidə qələbə qazandıq. Müharibənin nəticələri mən deyən kimi oldu. Mən ilk günlərdən deyirdim ki, bu məsələ öz həllini hərbi, siyasi yollarla tapmalıdır. Deyirdim ki, biz məsələnin hərbi yollarla həllini hər an dayandıra bilərik və buna hazırıq. Bir şərtlə, Paşinyan şəxsən özü deməlidir ki, nə vaxt o, bizim torpaqlarımızdan çıxır. Öhdəlik götürməlidir, tarix verməlidir. Deməlidir ki, nə vaxt bizim torpaqlarımızdan çıxır. Bu olan kimi, mən bizim hücum əməliyyatlarımızı dayandırıram. O, artıq cəzasını alıb. Halbuki o vaxt o, 7 şərti bizə irəli sürəndə demişəm: Mənim bir şərtim var, - sənin yeddi şərtini zibil yeşiyinə atıram, - rədd ol, çıx get torpağımızdan. Öz xoşunla çıx get. Əgər qulaq assaydı, bu rəzil vəziyyətə düşməzdi. Müharibənin nəticələri də mən deyən kimi oldu. Biz Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Murovdağı, Suqovuşanı, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı hərbi yollarla azad etdik. Döyüş meydanında düşmənin belini qırdıq. Şuşanın azad olunmasından bir gün sonra 70-dən çox kəndin azad edilməsi ilə düşmən diz çökdü, kapitulyasiya aktına imza atdı. Hələ ki, bilmirəm harada. Bunu gizlədirlər. Yəqin ki, nə vaxtsa bizə deyəcəklər. Paşinyan, harada imzalamısan sən bu kapitulyasiya aktını? Ancaq məcbur olub bizim şərtlərimizi qəbul edib.

Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir. Kəlbəcər bizimdir! Qarabağ Azərbaycandır!

# Əli Əhmədov: "Beynəlxalq layihə hazırlanmasa, yoxsul insanların peyvənd əldə etməsi çətin olacaq"



***Bu gün dünyada insanlar pandemiyadan ciddi şəkildə əziyyət çəkir, pandemiya insan sağlamlığına zərər vurmaqla yanaşı, ölkələrin iqtisadiyyatına və sosial həyatına da mənfi təsir edir. "İki sahil" Trend-ə istinadən xəbər verir ki, bunu Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (İCAPP) Daimi Komitəsinin videokonfrans formatında 34-cü iclasında çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - İcra katibi Əli Əhmədov deyib.***

Əli Əhmədov qeyd edib ki, Onun sözlərinə görə, dünyanın ən qlobal probleminə çevrilən COVİD-19-la yalnız qlobal səviyyədə mübarizə aparıldıqda ciddi şəkildə müsbət nəticələrin əldə olunması mümkün ola bilər.

YAP Sədrinin müavini çıxışında yaxın zamanlarda hazırlanacağı gözlənilən peyvəndlərə bütün insanların əlçatanlığına diqqəti yönəldib: "Məlumdur ki, dünyada 1.2 milyard insan yoxsulluq həddində yaşayır. Koronavirusa qarşı peyvəndin qiyməti isə 30-50 dollar civarında qiymətləndirilir. Ona görə də, yoxsul insanların özlərinin hesabına bu qiymətə peyvəndə əlçatanlığı problemlidir. Həmin insanların peyvəndə əlçatanlığını təmin etmək üçün 30-40 milyard dollar civarında vəsaitə ehtiyac var. Ona görə də, beynəlxalq səviyyədə bu peyvəndin çatdırılması ilə əlaqədar layihə hazırlanmasa, ehtiyacı olanların onu əldə etməsi çətin olacaq. Hesab edirəm ki, yoxsul əhalinin əhəmiyyətli bir hissəsinin Asiya regionunda olduğu nəzərə alınaraq İCAPP COVİD-19 pandemiyası qarşı mübarizə ilə əlaqədar bu məsələdə təşəbbüslər irəli sürə bilər".

Əli Əhmədov çıxışında həmçinin beynəlxalq hüququn dünyada tətbiqi məsələsinə də toxunub. O qeyd edib ki, 30 ilə yaxın Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olunmuşdu: "Biz 30 il münaqişənin dinc yolla həlli olunması üçün beynəlxalq hüququn təsirli olacağına inandıq və buna görə də gözlədik. Amma bu baş vermədi. İşğala əsaslanan status-kvonun saxlanması üçün Ermənistanın dəfələrlə törətdiyi təxribatlardan sonra Azərbaycan beynəlxalq hüquqa əsasən öz ərazi bütövlüyünü bərpa etmək üçün hərbi əməliyyatlara başladı. Bunun nəticəsində 44 gün ərzində torpaqlarımız işğaldan azad edildi. Bu, ədalətin bərpası deməkdir. Hesab edirəm ki, İCAPP beynəlxalq hüququn prinsiplərinin daha ciddi və sistemli şəkildə tətbiq olunmasının vacibliyi ilə bağlı təşəbbüsü dəstəkləmək istiqamətində addımlar ata bilər. Bu baxımdan, mən Bakıda Yeni Azərbaycan Partiyasının ev sahibliyi ilə gələn ilin bu zamanlarında "Sülh və əməkdaşlıq naminə dialoq: siyasi partiyaların rolu" mövzusunda beynəxlaq konfransın keçirilməsini təklif edirəm. İCAPP bu tədbirin keçirilməsində yaxından iştirak edə bilər".

Tədbirdə həmçinin, Livanın nümayəndəsi Fadi Favaz, Nepalın nümayəndəsi Suzata Korola, Kambocanın nümayəndəsi Kuon Sudari, Hindistanın nümayəndəsi Vicay Colmi və başqaları çıxış edərək müzakirə olunan məsələlərlə bağlı fikirlərini bildiriblər. Sonda iclasın gündəliyində olan məsələlərlə əlaqədar müvafiq qərarlar qəbul olunub.

# "France-24" kanalı Kəlbəcərin azad edilməsi haqqında reportaj yayımlayıb






***"France-24" kanalı Kəlbəcər rayonunun işğaldan azad edilməsi haqqında reportaj yayımlayıb. AZƏRTAC xəbər verir ki, reportajda Kəlbəcərin rəsmi Bakı ilə əldə edilmiş razılaşmaya əsasən Ermənistanın Azərbaycana təhvil verməli olduğu üç rayondan ikincisi olduğu bildirilir. Altı həftəlik döyüşlərdən sonra Azərbaycanın öz mövqelərini möhkəmləndirdiyi vurğulanır.***

Kanalın Azərbaycandakı çəkiliş heyəti Azərbaycan Ordusunun ermənilərin işğalı altında olmuş Kəlbəcər rayonuna girməsi ilə bağlı məlumat verir. Qeyd edilir ki, 27 ildən sonra ilk dəfədir Azərbaycan Ordusu rayona daxil olur və bu, əldə edilmiş razılaşmaya uyğun olaraq həyata keçirilir.

Reportajda Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlının fikirlərinə də yer verilib. O bildirir ki, bu gün bütün Azərbaycan xalqı, Azərbaycan Ordusu üçün sevindirici gündür. Düşmən qüvvələrinin Kəlbəcərdən çıxarılması üçtərəfli Bəyanata əsasən həyata keçirilir.



Kəlbəcər sakini Aslan Kərimoğlu deyir: "Kəlbəcərdə keçirdiyim günləri heç vaxt unuda bilmərəm. Bu gün mənim həyatımda ən xoşbəxt gündür. Çünki mən 43 il yaşadığım torpağa yenidən qayıtmaq ümidindəyəm. Ümid edirəm ki, tezliklə oraya qayıdacağıq".

Reportajda qeyd edilir ki, 1993-cü ildə Ermənistan silahlı qüvvələri Kəlbəcər rayonunu işğal edib. Nəticədə 10 minlərlə azərbaycanlı rayonu tərk etməyə məcbur olub. Bu gün həmin məcburi köçkünlər Kəlbəcərə qayıtmağa və orada yaşamağa ümid edirlər.

# Rəcəb Tayyib Ərdoğan: Qarabağdakı 30 illik ədalətsizliyə son qoyuldu



***Qarabağdakı 30 illik ədalətsizliyə son qoyuldu. Ölkəmizin dəstəyi sayəsində Azərbaycan torpağı olan Qarabağda erməni işğalı sona çatıb, uzunmüddətli sülhə ümidlər ilk dəfə olaraq artıb. Qarabağda Azərbaycan bayrağı dalğalanmağa başlayıb. Bu fikirləri hakim Ədalət və İnkişaf Partiyasının sədri, Prezident Rəcəb Tayyib Ərdoğan partiyasının Türkiyə Böyük Millət Məclisindəki qrup toplantısında ifadə edib.***

Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli barədə mövqeyinin dəyişməz olduğunu, bu məsələ ilə bağlı həyata keçirilən tədbirlərdən, bu istiqamətdə dövlət başçıları ilə davamlı təmaslarından bəhs edən Prezident Rəcəb Tayyib Ərdoğan təəssüflə bildirib ki, Minsk qrupunun bəzi həmsədr ölkələri açıq şəkildə Ermənistanın işğalçılıq siyasətinə dəstək verib. Qazanılan hərbi zəfər sayəsində artıq Kəlbəcər rayonunun da Azərbaycana qaytarıldığını vurğulayan dövlət başçısı bildirib ki, azərbaycanlı məcburi köçkünlərin öz yurdlarına dönməsi ədalətin bərpasıdır.

Türkiyə Prezidenti çıxışında gündəlikdəki digər məsələlər, o cümlədən ölkədə həyata keçirilən islahatlar, koronavirus pandemiyası ilə mübarizə tədbirləri, infeksiyaya qarşı yerli istehsal olan peyvəndin hazırlanması işləri barədə geniş məlumat verib.

# Valentina Matviyenko: Emosiyaları bir kənara qoymaq və atəşkəsin saxlanması üçün nə mümkündürsə, etmək lazımdır



MDB Parlamentlərarası Assambleyası formatı bütün MDB ölkələrinin, o cümlədən Azərbaycanın və Ermənistanın parlamentarilərinin işi üçün çox münasib və gərəkli strukturdur. AZƏRTAC xəbər verir ki, RF Federasiya Şurasının sədri Valentina Matviyenko bu sözləri "İzvestiya" qəzetinə müsahibəsində söyləyib.

RF parlamentinin aşağı palatasının spikeri Azərbaycan və Ermənistan parlamentlərinin rəhbərlərinin MDB Parlamentlərarası Assambleyası platformasında ünsiyyətdə olmaq imkanının vacibliyini vurğulayaraq bildirib ki, bu ölkələr təşkilatın növbəti sessiyasında iştirak edəcəklərini təsdiqləyiblər.

V.Matviyenko deyib: "Qarabağ probleminə gəldikdə, bu, MDB-nin səlahiyyətlərinə aid deyil. Ona görə də təbiidir ki, bu mövzu bizim gündəlikdə yoxdur. Lakin əgər həmkarlarımız bu mövzuya toxunarlarsa (bunu istisna etmək olmaz), biz onları diqqətlə dinləyəcəyik".

RF Federasiya Şurası sədrinin fikrincə, Qarabağ məsələsinin nizamlanması çox həssas mövzudur. O deyib: "Üç ölkənin - Azərbaycan, Ermənistan və Rusiyanın liderləri arasında əldə edilmiş razılaşmanı misilsiz sənəd hesab edirəm. Burada bizim Prezident mühüm rol oynayıb. Mənim fikrimcə, indiki vəziyyətdə ehtiyatsız deyilən hər hansı söz vəziyyətin yenidən kəskinləşməsinə səbəb ola bilər. Emosiyaları bir kənara qoymaq və atəşkəsin saxlanması üçün nə mümkündürsə, etmək lazımdır".

# Prezidentə yazırlar: Vətən müharibəsində qalib gəlib torpaqlarımıza qovuşmaq sevincini bizə yaşatdığınız üçün Sizə minnətdarıq

***Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız Qarabağ müharibəsində əldə etdiyimiz tarixi Qələbə münasibətilə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar ünvanlamaqda davam edirlər. Sevinc və qürur hissləri ifadə olunan məktublarda dövlətimizin başçısına minnətdarlıq bildirilir, Zəfər təbrikləri çatdırılır. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.***



Özbəkistanın Cizak şəhərində yaşayan Günel Əliyeva yazır: "Hörmətli cənab Prezident, Özbəkistanda yaşayan azərbaycanlılar adından Sizi və bütün Azərbaycan xalqını möhtəşəm Qələbə münasibətilə səmimi qəlbdən təbrik edirəm. Erməni təcavüzü nəticəsində şəhid olan bir neçə qohumumuz var. Onların ruhu bu gün şaddır. Vətən yolunda şəhid olanlara Allahdan rəhmət, yaralılarımıza şəfa diləyirəm. Uca Tanrı Sizi və xalqımızı qorusun! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Almaniyanın Frankfurt şəhərində yaşayan Ernad Deni Çomaqa: "Hörmətli cənab Prezident, Qarabağda suverenliyinizin bərpa olunması münasibətilə Bosniya diasporu adından Sizi təbrik edirəm. Bosniya xalqı Azərbaycan xalqının vəziyyətini yaxşı anlayır və onunla eyni çətinlikləri yaşayıb. Biz də yalnız müsəlman olduğumuz üçün təcavüz, zülm və soyqırımına məruz qalmışıq. Azərbaycanın qələbəsini ədalətin zəfəri kimi görməkdən məmnun olduq. Bu, bizə bir daha sübut etdi ki, xalq öz istəyi ilə azadlıq uğrunda səy göstərməsə, heç kim onun yerinə bunu etməyəcək. Azanın Şuşa və Ağdam məscidlərindən əbədi səslənməsini, həmçinin Bosniya xalqı ilə Azərbaycan xalqının qardaşlığının daimi olmasını arzu edirik".

Masallıdan Yavər İsmayılov: "Möhtərəm Prezident, cənab İlham Əliyev, Sizi, xalqımızı, Ordumuzu möhtəşəm Qələbə münasibətilə Masallı rayonuLəngan kənd sakinləri adından ürəkdən təbrik edirik. Cənab Prezident, Sizin komandanlığınızla bu müqəddəs hissləri bizə yaşadan Müzəffər Ordumuza dərin minnətdarlığımızı bildiririk. Sizin rəhbərliyinizlə doğma Azərbaycanımız ildən-ilə daha da çiçəklənəcək, xalqımızın rifahı daha da artacaq. Bütün xalqımız Sizə Azərbaycanın Milli Qəhrəmanı fəxri adının verilməsi təklifini dəstəkləyir. Uca Tanrıdan Sizə, ailənizə, sevdiklərinizə uzun ömür, cansağlığı arzu edirik".

Gəncədən Gülnar Salahova: "Çox hörmətli liderimiz, əvvələ Sizi əldə etdiyiniz Qələbə münasibətilə ailəmiz adından ürəkdən təbrik edirik. Siz ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı olaraq xalqımızın xilaskarı oldunuz. Allah hər zaman yolunuzu açıq etsin! Cənab Prezident, bu günlərdə sevincimizin həddi-hüdudu yoxdur. Əminik ki, geri qaytarılmış torpaqlarımızda Sizin sayənizdə azad yaşayacağıq. Evimizin ağsaqqalı ilə birlikdə biz Sizin hər bir çıxışınızı diqqətlə izləyir və verdiyiniz Qələbə xəbərlərini sevinc göz yaşları ilə qarşılayırıq. Cənab Prezident, Sizə olan inamımız, güvənimiz sonsuzdur. Vətənimiz uğrunda şəhid olmuş oğullarımızın ruhu qarşısında baş əyərək, Vətən sağ olsun deyirik! Ulu Tanrı Sizi, Azərbaycan Ordusunu, əsgər və zabitlərimizi qorusun!".

Naxçıvandan Məmməd Məmmədov: "Qəhrəman Prezidentimiz, Qarabağ torpaqlarının düşməndən alınması münasibətilə bütün naxçıvanlılar adından və ailəm adından Sizi təbrik edirik. Allah Sizi, Ordumuzu və Qarabağımızı və bütün xalqımızı qorusun. Naxçıvanlılar Sizinlə fəxr edir. Qarabağ Azərbaycandır!".

Şirvan sakini Lyudmila Qribova: "Hörmətli cənab Prezident, biz Qələbəyə ürəkdən inanırdıq və o gün gəldi! Qələbə! Sonsuz sevinc və göz yaşları bir-birinə qarışdı. Ümummilli liderimiz Heydər Əliyevin layiqli oğlunun - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik rəhbərliyi altında bizim şanlı Ordumuz çoxdan həsrət qaldığımız Qarabağ torpaqlarını özümüzə qaytardı. Qəlbimiz sevinc və qürurla doludur ki, xalqımız yenilməzdir! Mən Şirvan şəhərində doğulub boya-başa çatmışam, hazırda 13 nömrəli orta məktəbin müəllimiyəm. Ailəm də artıq 6-cı nəsildir ki, bu bərəkətli torpaqlarda yaşayıb, yaşayır və yaşayacaq. Bizim başqa Vətənimiz yoxdur! Çünki bu Vətən mənə pulsuz təhsil verib, yaxşı tərbiyə verib, iş verib. Mən şəhər partiya komitəsində də işləmişəm, məktəb direktoru da olmuşam və heç kəs mənə deməyib ki, "sən russan". Altı nəsil az deyil. Hər zaman sevincdə də, kədərdə də öz xalqımızla birlikdə olmuşuq və nə qədər ki, ürəklərimiz döyünür - belə də olacaq! Respublikamızın ən çətin günlərində - 1993-1997-ci illərdə mənim neftçi-mühəndis və ehtiyatda olan zabit həyat yoldaşım Silahlı Qüvvələrdə xidmətə çağırılıb, kapitan rütbəsində şərəflə öz torpaqlarını qoruyub. Mənim övladlarım və nəvəm burada böyüyüb, Azərbaycan Respublikasının layiqli vətəndaşları olaraq yetişmişlər. Hörmətli Prezidentimiz, Sizə, ailənizə xoşbəxtlik, bütün xalqımıza səmimi-qəlbdən rifah arzulayıram. Yaşasın Azərbaycan!".

Balakən sakini Kərimət Əliqayeva: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, işğal altında olan torpaqlarımızın azadlığı uğrunda qazandığımız Qələbəyə, Zəfərə görə Sizi ailəmiz adından, şəxsən öz adımdan ürəkdən təbrik edirəm. Çox şükürlər olsun ki, bundan belə biz şəhid analarının gözlərindən yaş axmayacaq, şəhid oğullarımızın qanı yerdə qalmadı, daha qan tökülməyəcək, ahnalələr göyə ucalmayacaq. Bir şəhid anası olaraq ən böyük arzum 21 il öncə şəhid olmuş oğlumun qanı töküldən yeri ziyarət etməkdir. Bu imkanı bizə bəxş etdiyiniz üçün Sizə minnətdaram, ey böyük Sərkərdəmiz!".

Füzuli sakini Mədəd Hacıyev: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, apardığınız məqsədyönlü siyasəti dəstəkləyir və bu ağır Vətən müharibəsində dövlətimizin qalib olub öz torpaqlarına qovuşmağı sevincini bizə yaşatdığınız üçün Sizə öz dərin minnətdarlığımı bildirirəm. Sizin sayənizdə Azərbaycan xalqı tarixə şanlı hərflərlə Qələbə sözünü yazdı. Bütün Füzuli camaatı adından Sizə təşəkkür edirəm. Allah şəhidlərimizə rəhmət eləsin. Allah Sizi və Ordumuzu qorusun! Yaşasın müstəqil Azərbaycan!".

Gədəbəydən Elsevər Nağıyev: "Müzəffər Ali Baş Komandan, bu gün ölkəmiz naminə həyata keçirilən tədbirlərə, görülən işlərə görə Sizə minnətdarlığımı bildirirəm. Torpaqlarımızın azadlığı uğrunda əldə edilmiş Qələbə münasibətilə Sizi təbrik edir, Sizə xoş arzularımı bildirirəm. Biz gənclər daim Sizə güvənərək Sizin ətrafınızda sıx birləşmişik. Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar arzulayıram".

Ağdam sakini Vüsalə Bağırova: "Hörmətli cənab Prezident, Sizin Vətənimizin ərazi bütövlüyü uğrunda apardığınız mübarizəni dəstəkləyirik. Çünki Siz bu mübarizə ilə tarix yazırsınız. Ən yeni tarix, o tarix ki, Azərbaycan əbədi bir dövlət olduğunu sübut edir. Biz Sizin siyasətinizi ailəliklə alqışlayırıq. Qarabağ Azərbaycandır".

Masallıdan Pərvanə Məmmədova: "Cənab Prezident, Sizi və bütün Azərbaycan xalqını erməni vandallar üzərində qazanılmış bu möhtəşəm Qələbə münasibətilə təbrik edirəm və əmin-amanlıq arzulayıram. Sağ olsun, mənim rəhbərim. Uca Allahdan bu müqəddəs yolda canlarından keçən qəhrəman Azərbaycan övladlarına rəhmət, yaralılarımıza şəfa diləyirəm. Yaşasın Azərbaycan!".

Bakı sakini Gülşən İsmayılova: "Hörmətli cənab Prezident, ölkənin yenilməz sərkərdəsi, mənim 65 yaşım var. Özüm Qarabağlı olsam da 17 yaşından Bakı şəhərində yaşayıram. Kəlbəcər, Laçın və Şuşanı görən, gəzən adam kimi yenidən həmin yerləri görmək nisgili ilə yaşayırdım. Siz isə Qarabağ nisgilini ürəyimizdən sildiniz, bizi göylərə qaldırdınız. Şəhid ailələrinin qarşısında baş əyir, onlara səbir arzulayır, şəhidlərimizə rəhmət, yaralılara şəfa diləyirəm. Siz bizim ölkəmizi inkişaf etdirən Prezident, Müzəffər Ali Baş Komandansınız. Siz xalqımızın adil rəhbəri, müdrik atasısınız. Sizin qızıldan heykəliniz qoyulmalıdır. Allah Sizə kömək olsun! Rəbbim Sizi qorusun! Allah Sizi bədnəzərdən qorusun!".

# Adil Əliyev: Azərbaycan Ordusu düşməni BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin icrasına məcbur etdi



***Müharibədə məğlubiyyətə uğrayan Ermənistan uzun illər ödəməli olacağı borca düşməklə yanaşı, işğalçılıq siyasətinin dayandırılması ilə əlaqədar üzərinə götürdüyü kapitulyasiyanın tələblərinin ödənilməsi barədə razılığa gəldi. Kapitulyasiyanın şərtlərinə uyğun olaraq, əvvəlcə, Ağdam şəhərini və rayonun işğal altında qalan kəndlərini qeyd-şərtsiz azad etdi. Növbəti mərhələdə - yəni, bu gündən etibarən ölkəmizin əzəli və əbədi torpağı olan Kəlbəcər rayonu rəşadətli Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Kəlbəcər rayonunun işğaldan azad edilməsi ilə Azərbaycan xalqının 27 illik həsrətinə son qoyuldu. Bir məqamı vurğulamaq lazımdır ki, Ağdam şəhəri və rayonun işğal altında olan kəndləri, habelə Kəlbəcər rayonunu düşmən döyüşsüz təhvil vermək məcburiyyətində qaldı.***

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin müavini Adil Əliyev deyib.

Adil Əliyev bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev dediyi kimi, biz bu əraziləri bir mərmi belə atmadan geri qaytardıq. Təbii ki, bu gün Ermənistanın Ağdam və Kəlbəcər rayonlarını geri qaytarması düşmənin öz istəyi ilə baş vermədi. Belə ki, Ermənistanın işğalçılıq siyasətini tanıyan Birləşmiş Millətlər Təşkilatının dörd qətnaməsi mövcuddur. Ermənistan həmin qətnamələrin tələblərinə dərhal əməl etməli və işğala birdəfəlik son qoymalı, işğal altındakı ərazilərimizi qeyd-şərtsiz boşaltmalı idi. Lakin Ermənistan bütün tələblərə zidd olaraq heç bir öhdəliyini yerinə yetirmədi. Əksinə, Ermənistanın baş naziri özünü “fövqəlgüc” hesab edərək, Azərbaycana qarşı 7 şərt irəli sürməkdən çəkinmədi. Ermənistan tərəfinin həyata keçirdiyi təxribatlar, hücumlar təcavüzkara əsl dərs verilməsinin zamanının gəldiyini aşkar şəkildə dünyaya göstərdi.

Təxribatların qarşısını almaq, eyni zamanda, Ermənistanın işğalçılıq siyasətinə birdəfəlik son qoymaq məqsədilə Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-dən başladığı əməliyyatlar zamanı işğalçıya sarsıdıcı zərbələr vurdu və düşməni tam məğlubiyyətə uğratdı.

Təbii ki, güclü ordumuzun döyüş meydanında qazandığı zəfər diplomatik səviyyədə mövqeyimizi daha da gücləndirdi. Ermənistanın xarici dövlətlərdən imdad diləməsi heç bir nəticə vermədi. Siyasi təzyiqlərə tabe olmayan qətiyyətli və müdrik Prezident İlham Əliyevin uğurlu diplomatik mövqeyi sayəsində bütün çətinliklər dəf edildi, siyasi üstünlüyümüz daha da möhkəmləndi. Düşmənin imzaladığı kapitulyasiya aktı Ağdam, Kəlbəcər və Laçın rayonlarının döyüşsüz təhvil almağımızı şərtləndirdi.

“Bu gün yalnız əbədi və əzəli torpaqlarımızın geri qaytarılmasında söhbət getmir. Xüsusilə vurğulamaq lazımdır ki, Kəlbəcər rayonunun Azərbaycana təhvil verilməsi Birləşmiş Millətlər Təşkilatının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi 822 nömrəli qətnaməsinin icrası idi. Belə ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü il aprelin 30-da qəbul etdiyi 822 nömrəli qətnaməyə əsasən, işğal olunmuş digər rayonlarımız kimi, Kəlbəcər də qeyd-şərtsiz azad edilməli idi. Lakin Ermənistan Dağlıq Qarabağla bağlı qəbul olunmuş digər 3 qətnamə kimi, həmin sənədin tələblərini də yerinə yetirməkdən imtina etdi. Beləliklə, bizim dədə-baba torpaqlarımızda erməniləşdirmə siyasəti və qanunsuz məskunlaşdırma prosesi davam etdirildi”, - deyə Milli Məclis sədrinin müavini bildirib.

Adil Əliyev diqqətə çatdırıb ki, qətnamələrin icrasına məsul beynəlxalq qurumlar isə sanki bunu görməzdən gəlirdi. Nəticədə Azərbaycan Prezidenti BMT Baş Assambleyasının 75-ci sessiyasının iclasında bildirdi ki, Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməkdən imtina edir və bununla yanaşı, beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq ərazimizə ayrı-ayrı ölkələrin vətəndaşlarını, o cümlədən muzdlu döyüşçüləri yerləşdirir. Lakin təəssüf ki, bu gün Ermənistana yardım göstərən və BMT Təhlükəsizlik Şurasının üzvü olan Fransa başda olmaqla, digər ölkələr də bu təcavüzün qarşısının alınması, işğalçılıq siyasətinə son qoyulması üçün heç bir səy göstərmədi.

“Göründüyü kimi, BMT özünün qəbul etdiyi qətnamələrin icrasına nail ola bilmədi. Bunu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu ən yüksək, mükəmməl səviyyədə bacardı. Kəlbəcər rayonu uğrunda döyüş əməliyyatları aparılmadan Ermənistan ordusu həmin ərazini birdəfəlik tərk etdi. Demək ki, vaxtında kifayət qədər təzyiqlər olsaydı, Ermənistan bu ərazini illər əvvəl tərk edərdi”, - söyləyən A.Əliyev vurğulayıb ki, bu gün məğlub olmuş düşmən nəhayət anladı ki, Azərbaycan Respublikasının Prezidenti həm də dünyanın ən öndə gedən liderlərindən biridir. Dövlətimizin başçısı istər döyüş meydanında, istərsə də diplomatik müstəvidə Azərbaycanın işğal altındakı torpaqlarının azad edilməsini qarşısına əsas hədəf olaraq qoymuşdu və hazırda bunu çox böyük müdriklik və qətiyyətlə reallaşdırır. Eşq olsun Müzəffər Ali Baş Komandana! Yaşasın Azərbaycan Ordusu!

# Hikmət Hacıyev: “Fransa Senatının bu qətnaməsi Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyil”

***Prezidentin köməkçisi Hikmət Hacıyev Fransa Senatında qondarma “Dağlıq Qarabağ respublikasının” tanınmasına dair qətnamə layihəsinin qəbuluna münasibət bildirib. AZƏRTAC xəbər verir ki, Hikmət Hacıyevin bununla bağlı şərhində deyilir:***



“Noyabrın 18-də Fransa Senatının Rəyasətində erməni diasporunun və lobbisinin təsiri altında olan bir qrup senator tərəfindən qondarma “Dağlıq Qarabağ Respublikasının tanınmasının zəruriliyinə dair” 145 nömrəli qətnamə layihəsi təqdim olunub, noyabrın 25-də müzakirə edilərək qəbul olunub.

İlk olaraq vurğulamaq istərdik ki, bu qətnamə Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyil. Dar siyasi ambisiyalar naminə qəbul olunmuş bu kağız parçası beynəlxalq hüquq normaları, BMT Nizamnaməsi və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin kobudcasına pozulması ilə yanaşı, Fransanın istər Minsk Qrupunun həmsədr ölkəsi, istərsə də BMT TŞ-nın daimi üzvü kimi məramı və obyektiv fəaliyyəti ilə bağlı ciddi suallar doğurur.

Senatın bu təxribatçı addımı Fransa siyasi dairələrinin ənənəvi Ermənistan təəssübkeşliyinin təzahürüdür. Vasitəçi ölkənin bitərəf və ədalətli olmalı olduğunu unudan Fransanın açıq ermənipərəst mövqeyi münaqişənin sülh yolu və beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə mane olan əsas amillərdən biri olmuşdur. Məhz onun belə dəstəyi təcavüzkar Ermənistanı status-kvonu davam etdirməyə və işğal faktını gücləndirməyə həvəsləndirmişdir.

Böyük təəssüf doğuran məqam odur ki, Fransa Senatı Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğal olunması, mülki əhalinin qətlə yetirilməsi, işğalçı dövlətin torpaqlarımızda etnik təmizləmə, ekoloji terror, qeyri-qanuni məskunlaşma və qanunsuz iqtisadi fəaliyyətlər aparmasına qarşı 30 il susqun mövqe nümayiş etdirmişdir.

Qətnamənin mətnində Azərbaycan və qardaş Türkiyənin ünvanına yer alan saxta ittiham və böhtanları qəti şəkildə rədd edirik, münaqişənin tarixi, siyasi və hüquqi aspektlərini təhrif etmək cəhdlərini kəskin qınayırıq.

Türkiyə və Azərbaycanın guya xaricdən muzdlu terrorçuları döyüşlərə cəlb etməsi ilə bağlı indiyə qədər heç bir sübutla təsdiq olunmamış iddialar əsassızdır. Ermənistan silahlı qüvvələri sıralarında Fransa vətəndaşları olan muzdluların Azərbaycan ərazilərində döyüşlərdə iştirak etməsi barədə faktlar və dəlillər aidiyyəti qurumlarımız tərəfindən Fransanın diqqətinə çatdırılmışdır.

Qətnaməni Fransada artmaqda olan islamofobiyanın bariz nümunəsi hesab edirik. Fransada ifrat dünyəvilik və mətbuat azadlığı pərdəsi altında İslam dininə və müsəlmanlara qarşı həyata keçirilən ayrı-seçkilik və təqiblər bizə vaxti ilə bu ölkədə hökm sürmüş və gün də davam edən anti-semitizmi xatırladır.

Fransa Senatı məqsədyönlü şəkildə döyüşlərin davam etdiyi 44 gün ərzində münaqişə bölgəsinə yaxın və oradan uzaqda olan dinc sakinlər, mülki obyektlər, enerji və nəqliyyat infrastrukturuna qarşı Ermənistan hərbi təxribatlarını qınamaqdan çəkinir, daha çox sayda mülki əhalisi qətlə yetirilmiş, kəndləri, qəsəbələri və şəhərləri raket atəşinə tutulmuş Azərbaycanı vicdansızcasına ittiham edir.

Erməniрərəst Fransa siyasi dairələri anlamalıdır ki, Azərbaycan öz torpaqlarında xarici işğalçı hərbi qüvvələrə qarşı müharibə aparmışdır və həmin ərazilər Azərbaycanın beynəlxalq hüquqda tanınan suveren əraziləridir. Heç bir qüvvə Azərbaycanı buna görə ittiham edə və Azərbaycanın hərbi birləşmələrinin bu ərazilərdən çıxarılmasını tələb edə bilməz.

2020-ci il noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin imzaladığı birgə bəyanatla Ermənistan və Azərbaycan arasında hərbi eskalasiyaya son qoyulmuş və regionda sülhün bərqərar olunması istiqamətində praktiki işlərə başlanmışdır. Təəssüflə qeyd edilməlidir ki, ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrindən biri olan Fransa nə qədər paradoksal olsa da, bu razılaşmanı pozmağa və münaqişəni yenidən alovlandırmağa çalışır. Fransanın son vaxtlar bir sıra beynəlxalq təşkilatlarda ölkəmizə qarşı riyakar siyasət aparması Azərbaycan tərəfində ciddi narahatlıq və suallar doğurur.

Fransa Senatı əgər ədalət, beynəlxalq hüquq barədə bu qədər “narahatdır”sa, onda onun BMT Baş Assambleyasının qətnamələrinə və Qoşulmama Hərəkatının qərarlarına uyğun olaraq müstəmləkəçiliyin ən son nümunələrindən biri olan Qəmər adalarının Mayot adası məsələsini nəzərdən keçirməsi daha məntiqli olardı.

Bu qətnamənin qəbulunu Fransa siyasəti və parlamentarizmi üçün olduqca utancverici bir addım kimi dəyərləndiririk. Fransa Hökuməti bu kimi təxribatçı addımların yolverilməz olmasına dair rəsmi mövqeyini bildirməli və qətnaməni qınayan bəyanat verməklə Azərbaycanın ərazi bütövlüyünə dəstəyini ifadə etməlidir”.

# Əlcəzair səfiri: “Füzuli şəhərinin yenidən qurulmasının, canlandırılmasının vaxtı gəlib çatıb”

Əlcəzairin Azərbaycandakı səfiri xanım Səlimə Abdelhak Xarici İşlər Nazirliyinin 22 Noyabr 2020-ci il tarixində azad edilmiş Füzuli şəhərinə təşkil etdiyi səfərdə iştirak edib.



Xanım səfir bildirib ki, dağılmış şəhər beynəlxalq müşahidəçilərin uzun illər davam edən münaqişənin acı nəticələrini görmələrinə imkan vermək üçün öz qapılarını açıb: “Beynəlxalq hüququn bərpasından sonra Azərbaycana böyük sənətkarlar bəxş edən şəhəri səciyyələndirən sənət və mədəniyyətin yenidən qurulmasının, abadlaşdırılmasının və canlandırılmasının vaxtı gəlib çatıb”.



# Maradona vəfat etdi, Argentinada matəm elan olundu

Dünya futbolunun əfsanələrində biri olan Dieqo Maradonanın ölümü ilə əlaqədar Argentina Prezidenti Alberto Fernandes ölkədə üçgünlük matəm elan edib. AZƏRTAC xəbər verir ki, bu barədə dövlət başçısının mətbuat xidməti məlumat yayıb. Qeyd edək ki, Maradona dünən 60 yaşda ürək tutmasından ölüb.

# "Fransa təcavüzkar Ermənistan ilə işğ
# arasında fərq qoymur və qərəzli surə

*Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Fransa Senatında Dağlıq Qarabağd*



***Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Fransa Senatında Dağlıq Qarabağdakı qondarma qurumun tanınması məsələsinə baxılması ilə bağlı bəyanat yayıblar. AZƏRTAC bəyanatı təqdim edir.***

## Azərbaycan Respublikasında fəaliyyət göstərən siyasi partiyaların

**BƏYANATI**

Məlum olduğu kimi, Fransa Senatı bu gün - noyabrın 25-də Dağlıq Qarabağdakı qondarma qurumu tanımağı tövsiyə edən qətnaməni müzakirəyə çıxarmağa hazırlaşır. Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar olaraq təəssüflə bəyan edirik ki, Fransa Senatının bu hərəkəti bizim üçün gözlənilməz deyildi, belə bir addım atılacağını gözləyirdik.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən başlamış qərəzli mövqe Tovuz rayonunda Azərbaycan sərhədlərinin pozulması zamanı, xüsusən də İkinci Qarabağ müharibəsinin gedişində və müharibədən sonra özünü daha qabarıq büruzə verdi.

Biz, Azərbaycan ictimaiyyətinin avanqardı olan, əksər hallarda siyasətə məhz ərazi bütövlüyümüzə qəsdin aradan qaldırılması üçün qatılmış siyasi xadimlər unutmamışıq ki, Dağlıq Qarabağ münaqişəsinin başlamasına səbəb ilk dəfə Mixail Qorbaçovun müşaviri Abel Aqanbeqyanın 1987-ci ildə məhz Parisdə keçirdiyi görüşlərdə Dağlıq Qarabağın Azərbaycandan alınıb Ermənistana verilməsi haqqında Fransadakı erməni diasporuna söz verməsi olmuşdur.

Birinci Qarabağ müharibəsinin gedişində Fransada həbsdən azad edilən ASALA terrorçuları Dağlıq Qarabağda azərbaycanlılara qarşı misilsiz vəhşilikləri ilə ad çıxarmışdılar. Terror fəaliyyəti heç kimdə şübhə doğurmayan şəxslərin kütləvi şəkildə azərbaycanlılara qarşı döyüşmək üçün Ermənistana, oradan da Dağlıq Qarabağa göndərilməsi bizim unutmayacağımız faktlardır.

Məhz Fransanın himayəsi ilə Yaxın Şərqdəki, xüsusən Livandakı erməni icması xüsusi imtiyazlar əldə etmiş, Livanda dövlət içərisində dövlətə çevrilmişdir. Fransanın himayəsi ilə Livandakı ermənilərdən formalaşdırılmış ASALA Yaxın Şərqdən terrorçular cəlb edərək azərbaycanlılara qarşı amansızlıqları ilə seçilən dəstələr təşkil etmişdir.

Azərbaycan və Fransa arasında ən yüksək səviyyədə dövlət səfərləri təşkil edilmiş, bizim ölkəmiz Fransaya böyük ümidlər bəsləyərək 1997-ci ildən ATƏT-in Minsk qrupuna həmsədr seçilməsinə razılıq vermişdir.

Azərbaycanda Fransanın iqtisadi maraqları maksimum təmin edilmişdir. Azərbaycanda 50-dən çox fransız şirkəti uğurla fəaliyyət göstərir və Azərbaycan iqtisadiyyatına yatırılan investisiyaların həcmi 2 milyard dollardan çoxdur. 2018-ci ilin iyununda Parisə səfəri zamanı Prezident İlham Əliyev iqtisadi əlaqələrin inkişafına xüsusi diqqət yetirmiş, aparıcı fransız şirkətləri və qruplarının rəhbərləri ilə görüşlər keçirmiş, 2,2 milyard dollarlıq anlaşmalar imzalanmışdı.

Azərbaycan dövləti və Heydər Əliyev Fondu Fransada çoxsaylı mədəni layihələr icra etmiş, Parisdə Versal Sarayı parkındakı ümumbəşəri abidələr, Luvr Muzeyi bərpa olunmuş, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzi, Luvr Muzeyində İslam incəsənəti bölməsi yaradılmışdır.

Lakin bütün bu addımlara baxmayaraq, Fransa qərəzli ermənipərəst mövqeyindən imtina etmədi, bəzi fransız şirkətləri İkinci Qarabağ müharibəsinin son anlarınadək Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz fəaliyyət göstərməkdə davam etdi.

2018-ci ildə bir çox Fransa bələdiyyələri qondarma rejimdəki bələdiyyələrlə dostluq xartiyaları imzalamışlar. Azərbaycan tərəfi Fransa məhkəmələri vasitəsilə bu xartiyaları ləğv etdirsə də, bu il Paris meriyası "Dağlıq Qarabağ respublikası"nı tanımaq təşəbbüsü qaldırmışdır.

Fransa Prezidenti Emmanuel Makron sentyabrın 30-da Latviyanın paytaxtı Riqada Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və cəbhədə baş verənlərə toxunaraq həqiqətə uyğun olmayan qeyri-ciddi açıqlamalar vermiş, daha sonra saxta məlumatlar və şayiələr əsasında, heç bir dəlil-sübutsuz ölkəmizə qarşı böhtan atmışdır.

Noyabrın əvvəlində Fransanın 42 tanınmış xadimi - yazıçılar, jurnalistlər və s. prezident Makrona birgə məktub yazaraq "Qarabağ ermənilərini müdafiə etməyə" çağırmışlar.

Fransanın xarici işlər naziri Jan-İv Le Drian bildirib ki, ATƏT-in Minsk qrupunun həmsədri olmasına baxmayaraq, rəsmi Paris Ermənistanı birtərəfli müdafiə etməkdə davam edəcək.

Dağlıq Qarabağ münaqişəsinin ilk çağlarından bu günədək davam edən qərəzli addımlar göstərir ki, Fransa ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi tərəfsizliyini qoruya bilmir. Fransa təcavüzkar Ermənistan ilə işğala məruz qalmış Azərbaycan arasında fərq qoymur və qərəzli surətdə işğalçı Ermənistanı müdafiə edir, obyektiv deyil, işğalçının yanındadır və vasitəçilik missiyasını yerinə yetirmir. Son hadisələr onu göstərdi ki, münaqişənin real həllində yalnız ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Rusiya və Minsk qrupunun üzvü olan Türkiyə maraqlıdır. Bu cür yanaşmaya, o cümlədən hər üç ölkə rəhbəri arasında dostluq və sıx əməkdaşlıq münasibətləri səbəb olmuşdur.

Dünyada ikili standartlarla, eyni hadisəyə fərqli yanaşma ilə ədalət təmin edilə bilməz. Hesab edirik ki, fransız siyasi elitası heç zaman Böyük Fransız İnqilabının ideallarına riayət etməmiş, bir tərəfdən qardaşlıq, azadlıq, bərabərlik, dinin dövlətdən ayrı olması idealları bəyan edilsə də, reallıqda müstəmləkəçilik, islamofobiya, antisemitizm, irqçilik, xristian təəssübkeşliyi bu ölkənin xarici siyasətində həmişə mühüm yer tutmuşdur. Məhz Fransanın yanlış yanaşmalarının nəticəsi olaraq Avropa İttifaqı bu gün bir xristian klubu kimi qəbul olunmaqdadır.

Fransa Əlcəzair, Tunis, Mərakeş, Çad, Qabon, Kamerun, Ruanda, Cibuti, Kamboca və Vyetnamda soyqırımları törətmiş bir ölkədir.

Bu gün Sakit Okeanda, Hind Okeanında və Karib dənizində yerləşən 11 ada dövləti və Cənubi Amerikada 1 materik ərazisi (Fransız Qvianası) və Şimali Amerikada yerləşən digər 1 materik ərazisi (Sen-Pyer və Mikelon) Fransa əraziləri hesab olunur. Bu müstəmləkə ərazilərində 3 milyona yaxın insan yaşayır və şəxsiyyət vəsiqələrində onların milliyyəti məcburi şəkildə "fransız" olaraq qeyd olunur. Fransa idarəçilərinə məsləhət görürük ki, Azərbaycana Dağlıq Qarabağla bağlı məsləhətlər verib uca bəyanatlar səsləndirməkdənsə, bu xalqların, o cümlədən 300 ildir işğal etdiyi Elzas və Korsika əhalisinin öz müqəddəratını müəyyən etmək prinsipinə necə yanaşırsa, Dağlıq Qarabağ mövzusuna da eyni münasibət göstərsin.

Belə ikili standartlara əlavə olaraq Fransa siyasi elitasının son zamanlar etnik və iqtisadi lobbilər tərəfindən ələ alınmasına dair Fransa mediası yüzlərlə yazılar dərc etməkdədir. 1980-ci illərdən üzü bəri Fransanın demək olar bütün aparıcı siyasətçiləri barədə bu məzmunda ittihamlar səsləndirilmişdir.

Azərbaycan ictimaiyyətinə Emmanuel Makronun da etnik lobbilər, konkret olaraq erməni lobbisi tərəfindən ələ alınması, öz fəaliyyətini erməni lobbisinin maraqları ilə uzlaşdırması haqqında məlumatlar bəllidir. Makronun Qarabağdakı "erməni dini və tarixi-mədəni abidələrinin" qorunması vacibliyindən danışdığı halda, İkinci Qarabağ müharibəsi zamanı ermənilərin hərbi cinayətləri nəticəsində 94 günahsız mülki şəxsin həlak olması barədə susması onun riyakarlığını bir daha

# ğala məruz qalmış Azərbaycan tdə işğalçı Ermənistanı müdafiə edir"

## lakı qondarma qurumun tanınması məsələsinə baxılması ilə bağlı bəyanat yayıblar

göstərir. Emmanuel Makronun ermənilərə münasibətdə göstərdiyi canfəşanlığın arxasında duran əsl səbəbləri tarix göstərəcəkdir.

Biz siyasi partiyalar olaraq bəyan edirik ki, indi daha konkret addımlar atmaq zamanı yetişmişdir. Fransa Senatının Dağlıq Qarabağla bağlı qətnaməsi qəbul olunacağı təqdirdə, açıq-aşkar işğalçını dəstəkləyən ölkə bundan sonra ATƏT-in Minsk qrupunun həmsədrliyindən uzaqlaşdırılmalı, Fransa ilə bütün siyasi-iqtisadi münasibətlərə yenidən baxılmalı, bütün mədəni layihələr dayandırılmalıdır.

**Yeni Azərbaycan Partiyası - Əli Əhmədov**

**Vətəndaş Həmrəyliyi Partiyası - Sabir Rüstəmxanlı**

**Ana Vətən Partiyası - Fəzail Ağamalı**

**Böyük Quruluş Partiyası - Fazil Mustafa**

**Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası - Qüdrət Həsənquliyev**

**Demokratik İslahatlar Partiyası - Asim Mollazadə**

**Vəhdət Partiyası - Tahir Kərimli**

**Vətəndaş Birliyi Partiyası - Sabir Hacıyev**

**Azərbaycan Demokratik Maarifçilik Partiyası - Elşən Musayev**

**Milli Cəbhə Partiyası - Razi Nurullayev**

**ReAL Partiyası - İlqar Məmmədov**

**Azərbaycan Ümid Partiyası - İqbal Ağa-zadə**

**Milli Dirçəliş Hərəkatı Partiyası - Fərəc Quliyev**

**Azərbaycan Demokrat Partiyası - Sərdar Cəlaloğlu**

**Ədalət Partiyası - İlyas İsmayılov**

**Klassik Xalq Cəbhəsi Partiyası - Mirmahmud Fəttayev**

**Azad Demokratlar Partiyası - Sülhəddin Əkbər**

**Azərbaycan Liberal Partiyası - Əvəz Temirxan**

**Azərbaycan Milli İstiqlal Partiyası - Arzuxan Əlizadə**

**Aydınlar Partiyası - Qulamhüseyn Əlibəyli**

**Azərbaycan Respublikaçılar Partiyası - Sübut Əsədov**

**Azərbaycan Sosial Demokrat Partiyası - Araz Əlizadə**

**Azərbaycan Sosial Rifah Partiyası - Əsli Kazımova**

**Böyük Azərbaycan Partiyası - Elşad Musayev**

**Milli Vəhdət Partiyası - Yunus Oğuz**

**AĞ Partiya - Tural Abbaslı**

**Müasir Müsavat Partiyası - Hafiz Hacıyev**

**Azərbaycan Liberal Demokrat Partiyası - Fuad Əliyev**

**Azərbaycan Yurddaş Partiyası - Mais Səfərli**

**Azadlıq Partiyası - Əhməd Orucov**

**Azərbaycan Naminə Alyans Partiyası - Abutalıb Səmədov**

**Azərbaycan Azad Respublikaçılar Partiyası - Kamil Seyidov**

**Cümhuriyyət Xalq Partiyası - Bədrəddin Quliyev**

**Milli Həmrəylik Partiyası - Əlisahib Hüseynov**

**Yeni Zaman Partiyası - Musa Ağayev**

**Vətəndaş və İnkişaf Partiyası - Əli Əliyev**

**Azərbaycan Xalq Demokratik Partiyası - Rafiq Turabxan**

**Azərbaycan Kommunist Partiyası - Hacı Hacıyev və Rauf Qurbanov**

**Milli Konqres Partiyası - İxtiyar Şirinov**

**Müstəqil Xalq Partiyası - Əflan İbrahimov**

**Vahid Azərbaycan Milli Birlik Partiyası - Hacıbaba Əzimov**

**Azərbaycan Milli Demokrat Partiyası - Tufan Kərimov**

**Azərbaycan Təkamül Partiyası - Teyyub Əliyev**

**Birlik Partiyası - Xudadat Xudiyev**

**Gələcək Azərbaycan Partiyası - Ağasif Şakiroğlu**

**Azərbaycan Milli Hərəkat Partiyası - Samir Cəfərov**

**Azərbaycan Mübarizləri Partiyası - Ağadur Müslümov**

**Qorqud Partiyası - Firudin Kərimov**

**Milli Demokrat İdrak Partiyası - Osman Əfəndiyev**

# Bakı sakinləri Kəlbəcərin işğaldan azad olunmasını avtoyürüşlə qeyd ediblər












Noyabrın 25-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Kəlbəcərin işğaldan azad olunması müjdəsini verdikdən sonra Bakı şəhərində avtomobil yürüşü keçirilib. Heydər Əliyev Mərkəzindən start götürən yürüş iştirakçıları paytaxtın küçə və prospektlərindən keçərək Şəhidlər xiyabanına doğru hərəkət ediblər.

Əllərində Azərbaycan, Türkiyə və Rusiya bayraqları tutan insanlar "Kəlbəcər azaddır", "Yaşasın Ali Baş Komandan, Yaşasın Azərbaycan Ordusu!", "Qarabağ Azərbaycandır!" şüarları səsləndirib, Müzəffər Ali Baş Komandanın portretini başları üzərinə qaldırıblar.

AZƏRTAC xəbər verir ki, daha bir yürüş Yasamal rayonundakı 20 nömrəli məktəb-liseyin qarşısından başlayaraq Şəhidlər xiyabanına, oradan da Azneft meydanına istiqamət götürüb. Şəhidlər xiyabanını ziyarət edən paytaxt sakinləri və kəlbəcərlilər Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıblar. Yürüş iştirakçılarından bir neçəsi sevinc hisslərini AZƏRTAC-la bölüşüb.

Paytaxt sakini Reyman Ağrılı deyib: "Bu gün Azərbaycanımızın qələbəsini qeyd edirik. Qarabağın dilbər guşələrindən biri olan Kəlbəcər artıq azaddır. Müzəffər Ali Baş Komandanın böyük sərkərdəlik məharəti, güclü iradəsi, qətiyyəti, rəşadətli Ordumuzun şücaəti, xalqın öz lideri ətrafında yumruq kimi birləşməsi Qələbəmizi təmin etdi. Ordumuz qısa müddətdə mənfur düşməni diz çökdürtdü. Dünya Azərbaycan Ordusunun gücünü bir daha gördü".

Digər müsahibimiz Kənan Əsgərov qüdrətli Azərbaycan dövləti və ordusu ilə fəxr etdiyini bildirib. O, işğal altındakı ərazilərimizin azad edilməsinin tarixi hadisə olduğunu vurğulayaraq deyib: "Prezidentimiz və Ordumuz müasir Azərbaycan tarixinin ən şanlı səhifələrindən birini yazdılar. Əsgər və zabitlərimiz yeni qəhrəmanlıq dastanına imza atdılar. Bu gün hər kəs dövlətimiz və ordumuzla qürur duyur. Yaşasın, Azərbaycan".

Yürüş iştirakçılarından Elvin Buruzov və Şikar Əzimov deyiblər ki, Kəlbəcərin işğaldan azad olunmasını görmək böyük xoşbəxtlikdir. "Bu gün çox sevincliyik. Hər dəfə torpaqlarımız işğaldan azad olunanda hədsiz sevinc və qürur duyuram. Xalqımıza qələbə yaraşır. Qoy bu sevincli günlərimiz daha da çox olsun", - deyə avtoyürüşdə iştirak edən Ramilə Vəliyeva bildirib.



# Vüqar Rəhimzadə: Dünya ictimaiyyəti Ermənistanın tarixi və dini abidələrimizin məhvinə yönəlmiş terror siyasətini kəskin şəkildə pisləməlidir

“Azərbaycan tolerant, multikultural dəyərlərin inkişafına böyük töhfələr verən ölkədir. Ölkəmizdə bütün millətlərin, dinlərin nümayəndələri sülh, əmin-amanlıq şəraitində yaşayırlar. Tarixi-mədəni, dini abidələrimiz necə qorunursa, digər millətlərə və dinlərə xas olan dəyərlər də həmin qaydada mühafizə edilir. Lakin bütün bunların əksinə olaraq Azərbaycanın işğal altında olan torpaqları azad edildikcə həmin yerlərdə Ermənistanın həyata keçirdiyi vandalizm və barbarlıq hərəkətlərini isbatlayan dəhşətli mənzərə ortaya çıxır. Ermənilər 30 ilə yaxın müddətdə işğal altında saxladıqları Azərbaycan ərazilərində dini dəyərlərini, tarixi-mədəni abidələri, məscidləri, qəbirləri dağıdıb, təhqir və talan ediblər. Artıq heç kim üçün sirr deyil ki, işğal edilmiş torpaqlarımızda bu kimi vandalizm hərəkətləri bilavasitə Ermənistanın keçmiş və indiki rəhbərliyinin göstərişi ilə törədilib. Bu gün artıq sosial şəbəkələrdə müxtəlif dillərdə yayımlanan Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa və Kəlbəcər şəhərlərimizin məscidlərinin dağıdılması faktı erməni vandalizminin sənədli sübutudur.

Bütün bu faktlar və sübutlar ortada ola-ola bu gün Ermənistan həyasızcasına dünyaya car çəkir ki, guya Azərbaycan işğaldan azad etdiyi ərazilərində erməni kilsələrini və digər xristian məbədlərini dağıdır. Təəssüf ki, ermənilərin 30 il ərzində işğalda saxladıqları Azərbaycan ərazilərində tarixi və dini abidələrimizi yerlə-yeksan etmələrinə, xüsusilə məscidlərimizi təhqir etmələrinə göz yuman dünyanın aparıcı dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlar iftiraya, yalana, böhtana əsaslanan erməni təbliğatına bir çox hallarda uyur, hətta utanıb-qızarmadan Azərbaycan dövlətindən işğaldan yenicə azad edilmiş Kəlbəcərdə mövcud olan xristian məbədlərinin qorunmasına təminat verməsini istəyirlər. Müzəffər Ali Baş Komandanımız noyabrın 25-də Kəlbəcərin işğaldan azad olunması ilə bağlı Azərbaycan xalqına müraciətində belələrinə bir daha qətiyyətli və tarixi ədalətə söykənən mesajını çatdırdı: “Kəlbəcər bizim qədim torpağımızdır. Qədim Azərbaycan torpağıdır. Kəlbəcər ərazi baxımından bizim ən böyük rayonlarımızdan biridir. Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var. Bu, heç kəsə sirr deyil. Sadəcə olaraq, erməni “tarixçiləri” və saxtakarlar qədim alban kilsələrini saxtakarlıqla erməniləşdiriblər, öz yazılarını oraya əlavə ediblər və bu kilsələri özününküləşdiriblər. Tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, 1830-cu illərdə çar Rusiyası alban kilsəsini ləğv etdi, alban kilsəsinin bütün mülkiyyətini erməni Qriqorian kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar. Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq onların başlıca vəzifəsi idi. Amma biz imkan vermədik. Azərbaycanda bu məsələ ilə bağlı kifayət qədər böyük elmi baza var, əsərlər var.”.

Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında söyləyib. Vüqar Rəhimzadə bildirib ki, işğaldan azad edilmiş torpaqlarımızda vaxtilə təqribən 403 tarixi-dini abidə mövcud olmuşdur: “Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si ziyarətgahdır. Ermənilər tərəfindən ən çox dağıntılara və təlafata məruz qalan məhz İslam dini abidələri, yəni məscidlər, türbələr, ziyarətgahlar və digər inanc yerləri olub. İşğal olunmuş ərazilərdə qalan İslam dininə aid tarixi abidələrin xüsusi amansızlıqla dağıdılmasının səbəblərindən biri də onların üzərində müsəlman epiqrafiyası ilə yazıların olmasıdır. Məhz buna görə bu abidələri erməniləşdirmək və qeyri-Azərbaycan abidələri kimi təqdim etmək mümkün deyil. Elə bu səbəbdən də Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 məscidin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhər Ağa, Yuxarı Gövhər Ağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub”.

“Ermənilər daha bir vandalizm nümunəsi və əxlaqsızlıq nümayiş etdirərək Ağdamda, Zəngilanda, Qubadlıda məscidlərin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla azərbaycanlılara və ümumilikdə İslam dünyasına qarşı öz nifrətlərini, təhqiramiz hərəkətlərini nümayiş etdiriblər” deyən Vüqar Rəhimzadə əlavə edib ki, düşmən tərəfindən bir çox nadir tarixi mədəniyyət abidələrinin dağıdılması, İslam dininə aid olan nümunələrin məhv edilməsi və hətta tarixi abidələrin restavrasiyası adı altında Qafqaz Albaniyasına aid mədəni irsin saxtalaşdırılaraq erməniləşdirilməsi prosesi beynəlxalq birlik tərəfindən kəskin şəkildə qınanılmalıdır: “Lakin çox təəssüflər olsun ki, biz bu gün bunun əksini müşahidə etməkdəyik. Beynəlxalq birlik nəinki ermənilərin tarixi və dini abidələrimizə əsl barbarlara xas olan qeyri-insani münasibətini qınamır, əksinə işğaldan azad edilmiş Azərbaycan ərazilərindəki xristian məbədlərinin taleyindən ciddi narahatlıqlarını ifadə edirlər”.

Baş redaktor bu məqamda diqqəti Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın noyabrın 23-də işğaldan azad edilmiş Ağdam şəhərinə səfəri çərçivəsində dövlətimizin başçısının Ağdam məscidinin qarşısındakı çıxışında söylədiyi bu fikirlərə yönəltmişdir: “Bu gün, müharibə başa çatandan sonra artıq Qərb dairələrindən bəzi Qərb liderləri məsələ qaldırırlar ki, bəs, Azərbaycanın nəzarətinə keçən azad edilmiş torpaqlarda xristian məbədləri necə olacaq? Həm mənimlə söhbət zamanı, həm rəsmi bəyanatlarda narahatlıq ifadə edirlər. Heç kim narahat olmasın, xüsusilə Qərb dövlətlərinin liderləri, hansılar ki, islamofob hissləri alovlandırırlar. Hansılar ki, İslam müqəddəslərinin təhqirlərinə göz yumurlar və hətta onları təhqir edənlərə bəraət qazandırırlar. Onların haqqı yoxdur bu barədə danışmağa, bu, birincisi. İkincisi, bizim ərazimizdə olan bütün məbədlər tarixi sərvətimizdir. Azərbaycanda hər il Bakı Humanitar Forumu, ya da ki, Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Azərbaycanda dünya dini liderlərinin Zirvə görüşləri keçirilib. Baxın, görün, nələr deyilib bizim haqqımızda. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda İslam dininə olan münasibəti örnək kimi göstərir. Rusiya Pravoslav Kilsəsinin patriarxı Kiril Bakıda olarkən Azərbaycanda bu sahədə görülmüş işlərə yüksək qiymət verib, Pravoslav kilsələrində olub. Roma Papası Fransisk Bakıda olarkən rəsmi çıxışında Azərbaycanda tolerantlıq, dini dözümlülük, multikulturalizm haqqında danışıb. Kim bizə irad tuta bilər? Məscidləri bağlayan? Yaxud da ki, müsəlman məscidlərinə öldürülmüş donuzların başlarını atan bizə dərs deyəcək, narahatlıq ifadə edəcək?”.

Vüqar Rəhimzadə qeyd edib ki, dini və tarixi abidələrə münasibətdə ermənilərin həyata keçirdikləri vandalizm aktlarının qarşısı beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq qəti şəkildə alınmalıdır: “Bir müddət öncə işğaldan azad olunmuş Qubadlı rayonunun Məmər kəndində yerləşən məscidin yerlə-yeksan edilməsi, eləcə də tarixin saxtalaşdırılması cəhdləri Ermənistanın işğalçılıq siyasətinin əyani sübutları kimi diqqət çəkməkdədir. Məhz işğal olunmuş ərazilərdə çoxəsrlik tarixi olan maddi-mənəvi irsin dağıdılması beynəlxalq hüququn və konvensiyaların, xüsusilə də 1954-cü ildə “Silahlı münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında” Haaqa Konvensiyasının və 1999-cu ildə ona əlavə edilmiş Protokolların tələblərinin kobud şəkildə pozulmasıdır. Bu mənada dünyanın aparıcı dövlətlərinin, beynəlxalq təşkilatların rəhbərləri, dini liderlər, bütövlükdə dünya ictimaiyyəti diqqəti bu cür barbarlıq və vandalizm əməllərinə yönəltməli, Ermənistanın mədəni və mənəvi terror siyasətini ifşa etməlidirlər”.

Baş redaktor bu baxımdan noyabrın 24-də Azərbaycandakı müsəlman, pravoslav, Alban-udi və yəhudi dini konfessiyalarının rəhbərlərinin Qarabağda dağıdılan dini abidələrimizlə bağlı xarici ölkələrin dövlət və hökumət başçılarına, beynəlxalq təşkilatların rəhbərlərinə, dini liderlərə və dünya ictimaiyyətinə ünvanladıqları birgə bəyanatı yüksək qiymətləndirib: “Bəyanatda da qeyd edildiyi kimi, tarix boyu Azərbaycanda firavan yaşayan və öz dini ayinlərini sərbəst şəkildə yerinə yetirən xristian pravoslav, katolik, Dağ yəhudiləri, Alban-udi xristian, aşkenazi-Avropa yəhudiləri və digər dini icmaların rəhbərləri Azərbaycanın sülhsevər siyasətini dəstəkləyir, tariximizin və mədəniyyətimizin bərpası sahəsində görüləcək möhtəşəm quruculuq işlərinə xeyir-dua verirlər. Eyni zamanda, birgə bəyanatı imzalayan dini konfessiya rəhbərləri xarici ölkələrin dövlət və hökumət başçılarına, beynəlxalq təşkilatların rəhbərlərinə, dini liderlərə və dünya ictimaiyyətinə müraciət edərək, onları ölkəmizdə və yaşadığımız bölgədə sülh, əmin-amanlıq və birgəyaşayışın bərqərar olmasına dəstək verməyə çağırırlar. Bu, bir daha Azərbaycanın necə böyük tolerant və multikultural dəyərlərə sahib olan ölkə olduğunu bütün dünyaya bəyan edir”.

Vüqar Rəhimzadə dövlətimizin başçısı İlham Əliyevin 10 noyabr üçtərəfli razılaşmasına uyğun olaraq Kəlbəcər rayonunun işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən bu məqama xüsusi diqqət yönəltdiyini bildirib: “Ermənistan terror dövlətidir. Bu terrorun bir çox əlamətləri var. Tarixi abidələrimizin dağıdılması, mülki əhaliyə qarşı törədilən soyqırımı, meşələrimizin qırılması, çaylarımızın məcrasının dəyişdirilməsi və digər əlamətlər var. Görün, biz kimlərlə, hansı vəhşilərlə üz-üzə idik! Tarixi Qələbəmiz təkcə Ermənistan dövləti üzərində əldə edilmiş qələbə deyil, erməni faşizminin məhvidir.”

# “The Jerusalem Post”: Xarici siyasət strategiyası sübut edib ki, Azərbaycan İsrail üçün strateji cəhətdən mühüm ölkədir

Bu yaxınlarda Azərbaycanın Dağlıq Qarabağda erməni işğalçılarına qarşı apardığı müharibə rəsmi Bakının böyük qələbəsi ilə nəticələndi. Bu münasibətlə bir çox sosial şəbəkə istifadəçiləri Azərbaycan və Türkiyə bayraqları ilə yanaşı İsrail bayrağının da fotoşəklini paylaşıblar.

İsrailli hərbi ekspert Set Fransman bu barədə İsrailin nüfuzlu ingilisdilli “The Jerusalem Post” qəzetində dərc edilmiş “Müharibədə qələbə ilə əlaqədar Azərbaycanda İsrail bayraqları qaldırılıb. Münasibətlər bundan sonra da inkişaf edəcəkmi?” sərlövhəli məqaləsində yazır.

Türkiyənin Bakının hərbi səylərini dəstəklədiyini bildirən məqalə müəllifi vurğulayır: “Azərbaycan uzun illər ərzində İsraildən pilotsuz uçuş aparatları və müxtəlif növ silah-sursat alıb. Məhz bu nöqteyi-nəzərdən İsrailə Azərbaycanın strateji tərəfdaşı kimi baxılır. Bu, onu göstərir ki, strateji münasibətlər indi inkişaf edə və möhkəmlənə bilər.

Son onilliklər rəsmi Bakı ordunu yaxşılaşdıraraq və möhkəmləndirərək, özünün hərbi və texnoloji imkanlarını artırmağa çalışıb, düşmənin tanklarını və artilleriyasını məhv etməkdən ötrü texnologiyalardan - bir növ ani hərbi-hava qüvvələri qismində müasir dronlardan və pilotsuz uçuş aparatlarından istifadəyə səy göstərib. Bütün bunlar elə baş verdi ki, Bakı uğurla və effektli şəkildə hərəkət edərək Ermənistanın işğalçı qüvvələrinin zirehli tank bölmələrinə sarsılmaz və ağır zərbələr endirdi”.


THE JERUSALEM POST
Azerbaijan's victory in war brings out Israeli flags. Will relations grow?
By SETH J. FRANTZMAN NOVEMBER 11, 2020 17:30
The Azeri flag and Israeli flag are seen being waved. (photo credit: REUTERS/STRINGER/AMIR COHEN)

Set Fransman vurğulayır: “1990-cı illərdə Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunu işğal edib və bu region özünün qondarma “müstəqilliyini” elan edib və bununla da özünü dünya birliyi tərəfindən qəbul edilməyən kiçik dövlətlərə oxşadıb. Müxtəlif beynəlxalq təşkilatlar bu münaqişəni həll etməyə cəhd göstərsələr də, münaqişə nizamlanmayıb.

Bu dəfə müharibə Ermənistan üçün ciddi məğlubiyyətə çevrildi. Noyabrın ilk həftəsində işğalçı qüvvələr ciddi itkilər verdilər. Müharibə başlandıqdan 44 gün sonra Rusiyanın vasitəçiliyi ilə imzalanan razılaşmaya müvafiq olaraq, Rusiya ordusu regionda özünün sülhməramlı qüvvələrini yerləşdirdi, ermənilər isə Azərbaycanın işğal altında olan ərazisinin böyük hissəsini tərk etdilər”.

İndi sual yaranır, rəsmi Bakının İsrail ilə münasibətləri möhkəmlənəcəkmi?

İsrailli hərbi ekspert deyir: “İsrail və Azərbaycan bir neçə ümumi maraqlara sahibdirlər, onlardan biri enerjidaşıyıcıları ticarəti və müdafiə sənayesidir. İsrailin texnologiya sahəsində əməkdaşlıq baxımından Bakıya təklif edəcəyi çox şey var.

Bakıda İsrail bayraqlarının dalğalanması Azərbaycanın bu ölkəyə açıqlığının təzahürüdür. İsraildə Azərbaycan diasporunun Azərbaycana dəstək mitinqləri də keçirilib. Xarici siyasət strategiyası sübut edib ki, Azərbaycan İsrail üçün strateji cəhətdən mühüm ölkədir”.

# Ermənistan məğlub edilmiş, Azərbaycan isə zəfər çalmış ölkədir!

***Azərbaycanın Kəlbəcər rayonunu hərbi əməliyyat keçirmədən, siyasi yolla işğaldan azad etməsi böyük bir qələbədir. Kəlbəcər 1993-cü ilin aprel ayının 3-də Ermənistan ordusu tərəfindən işğal edilmişdi.***

Politoloq Şəbnəm Həsənova bununla bağlı AZƏRTAC-a açıqlamasında bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Kəlbəcərin işğaldan azad olunması ilə əlaqədar xalqa müraciətində də qeyd etdiyi kimi, Kəlbəcər və bütövlükdə torpaqlarımızın işğal altına düşməsində əsas günahkar qanunsuz yollarla hakimiyyətə gələn, heç bir siyasi biliyə, təcrübəyə, səriştəyə malik olmayan Azərbaycan Xalq Cəbhəsi olub. Torpaqlarımızın işğal altına düşməsində Xalq Cəbhəsinin birbaşa iştirakı, əli var və bu məsuliyyəti onlar daşıyır. Xalq Cəbhəsinin məqsədi, sadəcə, hakimiyyət uğrunda mübarizə idi. Ermənistan da bundan istifadə edərək torpaqlarımızı işğal edirdi. Şuşa və Laçının işğal altına düşməsindən sonra ölkəmizdə vəziyyət kritik həddə çatdı. Bundan istifadə edən Azərbaycan Xalq Cəbhəsi dövlət çevrilişi edərək hakimiyyətə gəldi. Onların tək məqsədi öz laxlamış hakimiyyətini möhkəmləndirmək, ölkəmizdə repressiyalar təşkil etmək, senzuranı tətbiq etmək və digər antidemokratik addımlar atmaq idi. Torpaqlarımız işğala məruz qalırdı, mülki əhalimiz öz dədə-baba torpaqlarından didərgin salınırdı, bütün bunlara baxmayaraq Azərbaycan Xalq Cəbhəsi, öz ciblərini doldurmaq, öz yaxın adamlarını vəzifələrə təyin etmək və öz hakimiyyətinin ömrünü uzatmaq məqsədi güdürdülər. Bunun nəticəsində də Kəlbəcər işğal altına düşdü. Vətənpərvərlikdən, peşəkarlıqdan, idarəçilikdən uzaq, xarici münasibətlərin, beynəlxalq norma və prinsiplərin nə olduğunu bilməyən, heç bir dildə danışa bilməyən təsadüfi adamlar Şuşanı düşmənə təhvil verdilər.

Vaxtilə xalqın tələbi ilə hakimiyyətə gələn, dövlətçiliyin əldən getməsinin qarşısını alan dahi Heydər Əliyevin varisi Prezident İlham Əliyev bu gün Şuşanı, Kəlbəcəri, Qarabağı qaytardı və Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə yanaşı, bizi dünyaya qürurlu xalq olaraq tanıtdı. Dünya Ermənistanı məğlub edilmiş, Azərbaycanı isə zəfər çalmış ölkə kimi tanıyır. Qələbəmiz isə təkcə Ermənistan dövləti üzərində əldə edilmiş qələbə deyil. Prezident İlham Əliyev, eyni zamanda, erməni faşizmini məhv etdi.




Politoloq qeyd edib ki, Şuşanın azad olunmasından bir gün sonra 70-dən çox kəndin azad edilməsi ilə düşmən diz çökdü, kapitulyasiya aktına imza atdı. Ağdamdan sonra artıq Kəlbəcər də Azərbaycana təhvil verildi. Ermənilər bölgəni tərk etmək üçün verilən vaxtdan əlavə möhlət istəyərək güzəşt edilən on gün ərzində Kəlbəcərdə vəhşi qəbilə kimi yaşayış binalarına, tarixi yerlərə və təbiətə qarşı törədilən amansız rəftarlar həyata keçirdilər, Azərbaycan Ordusu düşməni Şuşadan qovanda düşmən oraya gedən su xəttini sıradan çıxardı. Buna baxmayaraq dövlətimizin başçısının da qeyd etdiyi kimi, əsgərlərimiz Ağdam rayonunun bir kəndində erməni əhaliyə çıxmaq üçün şərait yaratdı. Budur Azərbaycan ilə Ermənistan arasında olan fərq və bunu bizi nədəsə ittiham etmək istəyən qüvvələr görməlidir. Azərbaycana dəymiş bütün ziyan beynəlxalq ekspertlərin iştirakı ilə hesablanacaq və Ermənistan belə vandal əməllərinə görə beynəlxalq məhkəmələr qarşısında cavab verəcək. Azərbaycan isə çox yaxın gələcəkdə Kəlbəcəri bərpa edəcək və yenidən quracaq, burada kənd təsərrüfatı, xüsusilə heyvandarlıq inkişaf edəcək. Kəlbəcər bizimdir, Kəlbəcər Azərbaycandır!

# Erməni diaspor təşkilatları Nikolun istefasını tələb etdilər

Noyabrın 9-da imzalanmış üçtərəfli atəşkəs bəyannaməsindən sonra ermənilərin müxtəlif diaspor təşkilatlarında etirazlar dalğasına başlanılıb və həmin etirazlar bu gün də davam etməkdədir. SİA xəbər verir ki, bu barədə "Daşnaksyutun"un ictimaiyyətlə əlaqələr ofisi erməni KİV-lərinə məlumat ötürüb. "İyirmidən artıq struktur və təşkilatlar, xüsusilə müxtəlif ölkələrdə fəaliyyət göstərən "Daşnaksyutun" orqanları köməkçi partnyor strukturlar vasitəsi ilə bəyanat və müraciətlərlə çıxışlar edərək, Ermənistan respublikasının baş naziri Nikol Paşinyanın bəyannaməyə imza atmasını kəskin şəkildə qınayırlar", deyə adıçəkilən erməni təşkilatının məlumatında bildirilir. SİTAT: "Göstərilən təşkilatlar Ermənistan respublikasının baş nazirini və onun komandasını yaranmış vəziyyətə görə cavabdeh hesab edirlər, imzalanmış sənədi antimillik və antidövlətçilik olaraq qiymətləndirirlər".

"Daxili fikir müxtəlifliyi və müxalifətə qarşı zor tətbiq etmə kimi hallardan çıxmaq üçün göstərilən strukturlar "Daşnaksyutun"un ali orqanı ilə həmrəy olduqlarını bildirir, 16 partnyor-partiyaları, onların etiraz aksiyalarının realizələrini və yol xəritəsi təkliflərini dəstəkləyir. Növbəti təşkilatlar və diaspor strukturları Ermənistan respublikasının baş naziri Nikol Paşinyanın və komandasının istefasını tələb edirlər", deyə məlumatda qeyd olunur:

### Küveyt milli strukturları

"Daşnaksyutun"un Qərbi Avropadakı komitəsi

Livanın qırmızı xaç yardım idarəsi

Livanın ümummilli erməni regional gimnastika ittifaqı

"Daşnaksyutun"un və Livanın gənclər birliyinin "Zaviryan tələbə ittifaqı"

"Amazqain" ümummilli erməni təhsil və mədəniyyət ittifaqı

Kanadanın "Daşnaksyutun" mərkəzi komitəsi

"Daşnaksyutun"un Mərkəzi Avropa regionu

Avstriyanın "Hay-dat" təşkilatı



Vyana ümumerməni gimnastika ittifaqı

"Daşnaksyutun"un Kanadadakı "Armen Qaro" tələbə ittifaqı

Monreal universitetinin erməni tələbə ittifaqı

Qonqortiya universitetinin erməni tələbə ittifaqı

"Daşnaksyutun"un Şimali və Cənubi İran mərkəzi komitələri

"Daşnaksyutun"un Yunanıstan mərkəzi komitəsi

***Rövşən RƏSULOV***

# Azər Badamov: "Torpaqlarımızdakı xristian abidələri heç də ermənilərə məxsus deyil"

Azərbaycanın işğal altındakı mədəniyyət nümunələrini, tarixi irsini dağıdan ermənilərə bir söz deməyən beynəlxalq təşkilatlar bölgədə xristian abidələrinin saxlanılması çağırışları ilə çıxış edirlər. Beynəlxalq təşkilatların bu cür mövqeləri onların məsələlərə ikili yanaşmaları kimi qiymətləndirilə bilər.

"Səs" qəzetinə açıqlamasında millət vəkili Azər Badamov bildirdi ki, torpaqlarımızı işğal altında saxladığı dövrdə daşı-daşı üstündə saxlamayan, məscidlərimizi dağıdan və donuz saxlayan yerlərə çevirmiş erməniyə "gözün üstündə qaşın var" deməyən xarici dairələr indi azad etdiyimiz torpaqlardakı xristian abidələrinin dağıdılma ehtimalı ilə bağlı çıxışlar edirlər. "Bu gün Azərbaycan öz torpağına sahib çıxdığı bir zamanda belə çıxışların edilməsi gülünc deyilmi? Yəni, ermənilər üçün torpaqlarımızda müsəlman məscidlərini dağıtmaq olar, bütün mədəni-dini məbədlərimizi məhv etmək olar, istədikləri vandalizm hərəkətlərini etmək olar, Azərbaycan üçün heç nə etmək olmaz? Ermənilər Kəlbəcərdə, Laçında evləri yandırır, meşələri məhv etməklə ekoloji terror törədirlər. Avropa Şurası, Avropa Parlamenti,



QHT-lər bütün bunları görə-görə niyə susursunuz? Təbii ki, bu, ikili standartların növbəti təzahürüdür".

A.Badamovun sözlərinə görə, əgər məsələyə həmin dairələr ikili standartlarla yanaşmasaydı, ermənilərə bu müddətdə bir təzyiq göstərsəydilər, işğal da bu qədər uzun çəkməzdi, mədəni-dini abidələrimiz viran qoyulmazdı: "Bizə kiminsə göstəriş və ağıl verməyinə ehtiyacımız yoxdur. Biz nəyi, necə etməyimizi yaxşı bilirik. Onu da qeyd edim ki, torpaqlarımızdakı xristian abidələri heç də ermənilərə məxsus deyil. Ermənilər tarixi Qafqaz Alban abidələrini özününküləşdirmişdi. İndi həmin abidələr də erməni işğalından azad olunmuşdur. Azərbaycan dövləti öz ərazisindəki bütün dini mədəni abidələri qoruyur. Ölkəmizdə tolerantlıq həyat tərzinə çevrilmişdir. Sadəcə, Qərbə məsləhət bilirəm ki, öz ərazisindəki müsəlman məscidlərinə, dini-ibadət yerlərinə dözümlə yanaşsınlar. Məscidlərə donuz kəllələrini atmasınlar, öz dininə ibadət edən müsəlman bacı-qardaşlarımıza qarşı ksenofobiya və diskriminasiya hərəkətlərinə yol verməsinlər. Öz ölkəsində islamofobiya və ksenofobiyanı günü-gündən çoxaldan bu dövlətlər bizə ağıl verməkdənsə, öz ölkələrində tolerant siyasətə üstünlük versinlər, dünyada sülhün və ədalətin möhkəmlənməsinə töhfə versinlər".

***Gülyana***

## Baqratyan: "Hərbi texnikalarımızın 85 faizi məhv edilib"



Ermənistanın sabiq baş naziri Hrant Baqratyan ölkəsinin Qarabağ döyüşlərindəki məğlubiyyətinin "səbəbini" açıqlayıb. Azvision xəbər verir ki, Baqratyan Paşinyan hakimiyyətinin həm siyasi, həm hərbi, həm də təşkilati istiqamətlərdə uduzduğunu etiraf edib. Keçmiş baş nazir erməni ordusunun texnikasının 85 faizinin məhv edildiyini bildirib: "Mən hansısa sirri açıqlamıram. Çünki azərbaycanlılar hamısını sayırlar və texnikalar onların ərazilərində qaldı? İndi Ermənistandakı axmaq rəqiblərimiz siz sirr yayırsınız deməyə başlayacaqlar. Məğlubiyyətin bir neçə siyasi səbəbi var? Biri Ermənistanın "Artsax"ın (Qarabağ-red) müstəqilliyini tanımamasıdır. Müharibə başlayandan bir saat sonra yazdım ki, dərhal müstəqilliyi tanıyın. Etmədilər. İkinci siyasi səhv anti-Rusiya meqamıdır. Nə qədər istəməsək də, başa düşməliyik ki, biz rusiyapərəst dairədə qalmalıyıq".

Baqratyan üçüncü siyasi səhv kimi, İranla olan münasibətləri, cənub qonşusunu özlərindən narazı salmalarını göstərib: "Buna görə də Ermənistan üçün nəzərdə tutulan yüklərin İran ərazisindən keçirilməsinə imkan vermədilər. Dördüncü məqam Gürcüstanla münasibətlərin səviyyəsi idi". Sabiq baş nazir daha sonra Çin amilini də qabardaraq belə bir super güclə münasibətlərdə siyasi səhvə yol verildiini deyib.

# Kəlbəcərin işğaldan azad edilməsi Azərbaycanın böyük strateji, siyasi və iqtisadi qələbəsidir

***Qürurverici haldır ki, Azərbaycanın işğalçı Ermənistan üzərində tarixi hərbi zəfərinin növbəti qələbəsi Azərbaycan Ordusunun bölmələrinin noyabrın 25-də Kəlbəcər rayonuna daxil olması ilə davam edir. Ağdamdan sonra "Azərbaycanın ikinci Qobustanı" adlandırılan Kəlbəcər kimi mühüm və strateji əhəmiyyətli, o cümlədən çətin relyefə malik bir rayonun bir güllə atılmadan və qan tökülmədən işğaldan azad edilməsi Azərbaycanın şanlı tarixi zəfəridir.***



Kəlbəcər ərazisinə görə Azərbaycanın ən böyük rayonudur. Kəlbəcər həm yeraltı, həm də yerüstü sərvətləri ilə olduqca zəngindir. Rayonun strateji əhəmiyyəti, təbiəti, turizmi və digər özəllikləri ilə bağlı bəzi məlumatları sizə təqdim edirik:

Kəlbəcər toponiminin mənşəyi qədim türk dilində (oykonimin ilkin forması Kevliçer kimi qəbul edilib) "çay üstündə qala" deməkdir. Kəlbəcər rayonu Ermənistanla sərhəd rayonudur. Rayon şimalda Daşkəsən, Göygöl, Goranboy, şimali-şərqdə Tərtər, şərqdə Ağdam, Xocalı, cənubda Laçın rayonları ilə əhatə olunub. Kəlbəcər Azərbaycanın yüksək dağlıq rayonlarından biridir. Ən hündür zirvələri Camışdağ (3724 m) və Dəlidağda (3616 m) yerləşir. Əhalisi 1 yanvar 2020-ci il tarixinə olan məlumata əsasən, 77 min nəfərdir. Hazırda rayondan məcburi köçkün düşənlərin 22%-i Gəncədə, 14%-i Bakıda, 12%-i Goranboyda, qalan hissəsi ölkənin müxtəlif şəhər və rayonlarında məskunlaşıb.

Kəlbəcər qədimliyinə görə həm də "Azərbaycanın ikinci Qobustanı" adlandırılır. Kəlbəcər ərazisindəki qayaüstü təsvirlər Qobustandakı yazılı və şəkilli daşların oxşarı - "əkiz"ləridir. "Soltan Heydər", "Qurbağalı çay", "Turşsu", "Ayçınqıllı", "Gəlinqayası", "Böyükdəvəgözü", "Sərçəli" və s. yerlərdəki qayaüstü təsvirlər təkcə Kəlbəcərin deyil, bütövlükdə Azərbaycan torpağının qədim insan məskəni olduğunu sübut edir. Bazalt daşına həkk edilmiş keçələrdən, ov səhnələrindən, yallıyabənzər oyunlardan, göy cisimlərindən, qədim heyvanlardan və s. ibarət bu daş kitabələr Kəlbəcərin tarixinin, mədəniyyətinin qədimliyini aydın şəkildə əks etdirir.

Kəlbəcər rayonunda olan dağ qalaları içərisində ən əzəmətlisi XIII-XIV yüzilliklərin abidəsi olan Lex qalasıdır. Qala Qanlıkənd kəndi ərazisində Lev çayının sağ sahilindən 600 metrə yaxın məsafədə, meşəli uca dağ belində salınıb. Üç tərəfdən sıldırım qaya və uçurumlarla əhatə olunmuş qalanın uzunsov, dağ relyefinə uyğun mürəkkəb plan quruluşu var.

Kəlbəcərdə dünya əhəmiyyətli 2 tarix-mədəniyyət abidəsi vardır, onlar Gəncəsər və Xudavəng monastırlarıdır. Gəncəsər monastırı (məbədi) Qafqaz Albaniyası xristian memarlığının ən görkəmli abidələrindən biridir. Qafqaz Albaniyasının tarixi və memarlıq nöqteyi-nəzərindən ən möhtəşəm və məşhur xristian kompleksi - Gəncəsər monastırı Ermənistan tərəfindən "təmir-bərpa" işləri adı altında saxtalaşdırılıb, erməni abidəsi kimi təqdim edilib. İşğaldan sonra abidənin daşları üzərində olan yazılar dəyişdirilib, bu alban incisinin erməni tarixi abidəsi olması barəsində materiallar yayılıb. Gəncəsər kompleksinin xarici divarlarında Alban patriarxiyası zamanı həkk olunmuş çoxsaylı qədim yazılar da interyerində olan yazılar kimi, erməni vandalizminə məruz qalıb.

Xudavəng monastırı (məbəd kompleksi) da dünya əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatına alınıb. Xudavəng və ya Dədəvəng monastırı Azərbaycan ərazisində ən böyük və gözəl monastırlardan biridir. Kəlbəcər rayonunun işğalından sonra Xudavəng monastırında da qanunsuz bərpa işləri başlanılıb. Bərpa adı altında saxtakarlaşdırma işləri Erməni Apostol Kilsəsinin nəzarəti altında 1997-2011-ci illərdə davam etdirilib.

Rayon ərazisi mədəniyyət abidələri və dini məbədlərlə zəngindir. Qaraçanlı kəndinə Uluxan qalası, Tərtər çayının Bulanıq çayı ilə qovşağında yerləşən Alban kilsəsi, Qalaboynu kəndində Qalaboynu qalası, Comərd kəndində Comərd qalası, Camışlı kəndində Keşikçi qalası, Kəlbəcər şəhərində məscid, Başlıbel kəndində məscid, Otaqlı kəndində məscid, Soyuqbulaq kəndində Tağlıdaş körpüsü, Kəlbəcər Tarix-diyarşünaslıq Muzeyi, Aşıq Şəmşir adına Mədəniyyət Evi, Söyüdlü yaylağında Seyid Əsədulla ziyarətgahı uzun illər işğal altında qalaraq Ermənistan Silahlı Qüvvələri tərəfindən dağıdılıb.

Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi 1982-ci ildə fəaliyyətə başlayıb. Muzeyin fondu 25 mindən çox eksponat təşkil edib. Muzeyin həyətində qədim qəbirüstü qoç və at fiqurları nümayiş etdirilirdi. Kəlbəcər rayonunun erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyinin fondu tamamilə məhv edilmişdir.

Qeyd edək ki, Kəlbəcərdə ümumilikdə 51 tarix-memarlıq abidəsi, 82 mədəniyyət evi və klub, 80 kitabxana, 1 musiqi məktəbi, 1 muzey fəaliyyət göstərib.

Kəlbəcərdə bitən 4 min adda bitkinin təxminən 200-ü dərman bitkisidir. Kəlbəcərdə 76 növ mineral, 36 süxur növü olduğu məlumdur. Buna görə də Kəlbəcər həm də geoloqlar tərəfindən "daş xəzinəsi" kimi qəbul edilir.

Kəlbəcərdəki geoloji (paleontoloji) obyektlərdəki yarğan və qobularda 40 metrədək hündürlüyü olan sütunvarı vulkanik çıxışlar mövcuddur. Bunlar vulkanik süxurlar üçün xarakterikdir. İstisu kəndində "Bazaltın sütunvarı aralanması" adlı geoloji abidə yerləşir.

Kəlbəcər rayonu ərazisi zəngin faydalı qazıntılarla, o cümlədən qızıl, gümüş, mis, xrom, civə, tellur, selen və s. kimi yataqları ilə zəngindir. Burada sənaye əhəmiyyətli Söyüdlü, Ağduzdağ və Qızılbulaq qızıl, Şorbulaq və Ağyataq civə və Mehmana polimetal yataqları xüsusilə əhəmiyyətlidir. Rayon ərazisində böyük ehtiyatlara malik əlvan və üzlük daşlar, inşaat materialları yataqları mövcuddur. Kəlbəcərin Söyüdlü - Zod qızıl yatağı qədim tarixə malikdir. Söyüdlü sahəsində 1970 - 80-ci illərdə aparılan geoloji kəşfiyyat işləri vaxtı qədim dağ qazmaları, mağaralar, quyular, qədim süxur çöküntüləri və qədim filiz qırıntılarından ibarət ayrı-ayrı təpəciklər və qızıl istehsal edən alətlər onu sübut edir ki, insanlar 4-5 min il əvvəl buralarda qızıl istehsal ediblər. Zar kəndi isə tarixdə "Şəhrizər", yəni "qızıl şəhəri" adı ilə məşhur olub.İşğal altında qalmış Kəlbəcər rayonunun təbii sərvətləri Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları uzun illər Ermənistan tərəfindən talan edilib.

Kəlbəcərin kənd təsərrüfatında isə heyvandarlıq əsas yer tutub. 1980-ci illərdə Kəlbəcərdə 130 min baş iribuynuzlu və xırdabuynuzlu heyvanlar saxlanıb. Kəlbəcər həm də iri tütünçülük rayonlarından biri olub. 1980-ci illərin statistikasına görə, burada ildə 660 hektar sahədə tütün əkilib.

Kəlbəcər rayonunda böyük meşə əraziləri vardır. Kəlbəcər rayonunda 24 min hektar meşə ərazisi var. Mənfur düşmən bu meşələri qırıb, talayıb, satıb.

Azərbaycanın bir neçə böyük çayının mənbəyi Kəlbəcər rayonundadır. Onların arasında ən böyüyü Tərtər çayıdır, uzunluğu 200 kilometrdir. Bazarçay, Xaçınçay- onların uzunluğu təqribən 200 kilometrə yaxındır. Bu çaylar böyük ərazini qidalandırırdı. İşğal dövründə Kəlbəcərdən başlayan Tərtər çayının suyu Sərsəng su anbarında və ondan sonra Suqovuşan su anbarında yığılırdı, işğalçının maraqlarını təmin edirdi. Suqovuşan qəsəbəsi azad edildikdən sonra artıq 100 min hektara suyun verilməsi nəzərdə tutulur.

Kəlbəcər turizm baxımından da geniş imkanlara malikdir.Füsunkar təbiətə və zəngin mədəni irsə malik olan Kəlbəcər İstisu mineral ehtiyatı və "İstisu" müalicə-istirahət sanatoriyası ilə dünyada tanınıb. İstisu sanatoriyası Kəlbəcərin qərb hissəsində - silsilə dağ yamaclarındadır. Kəlbəcər rayonu ərazisində yerləşən İstisu və Tutqun termal-mineral suları əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə xüsusilə fərqlənir. İstisu bulağı üstündə 80-ci illərdə iri kurort-sanatoriyalar və mineral sudoldurma zavodu tikilib. İstisu sanatoriyalarında hər il xeyli sayda insan müalicə olunur və istirahət edirdi.

Əlbəttə ki, Kəlbəcərin zənginliklərini saymaqla qurtarmaq olmaz. 27 ildir ki, işğalçı Ermənistan füsunkar, heyrətamiz, yeraltı və yerüstü sərvətlərlə zəngin olan Kəlbəcərimizin qoynunda məskunlaşıb, suyundan içib, təbiətinin ecazkar mənzərəsindən zövq alıb. Bəs, təcavüzkar dövlət dəyərləndirə bilibmi, bu qədər dəyərli Kəlbəcəri? Təbii ki, yox. Ermənistan heç bir zaman bu cür qiymətli yurda dəyər vermək iqtidarında deyil.

Qeyd etməliyik ki, Kəlbəcər həm də XXI əsrdə erməni vandalizminin əyani nümunəsinə çevrilib. Kəlbəcərin uzun müddət işğal altında saxlanılması nəticəsində həmin ərazidə bioloji müxtəlifliyə, o cümlədən flora və fauna növlərinə, xüsusi mühafizə olunan təbiət ərazilərinə ciddi zərər vurulub, ərazilərin yandırılması, su resurslarının çirkləndirilməsi, qiymətli ağac növləri ilə zəngin meşələr, eləcə də təbiət abidələrinin, ümumilikdə yeraltı və yerüstü təbii sərvətlərin məqsədli şəkildə talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulub. Kəlbəcər rayonunda 968 hektar ərazini əhatə edən "Qırmızı kitab"a daxil edilmiş ayıfındığı ağacları da kütləvi şəkildə qırılıb. Bütün bunlarla yetinməyən işğalçı ermənilər Kəlbəcərlə birdəfəlik vidalaşarkən belə öz vandallıqlarını nümayiş etməkdən utanmadılar. Azərbaycanın tarixi torpaqlarına sahib çıxdıqlarını zənn edərək təbii sərvətlərimizi talan edən ermənilər Kəlbəcərdə ağacları kəsdilər, evlərə, meşələrə od vurdular. Bu, əsl ekoloji terrordur. Bu işğalçı Ermənistan hakimiyyətinin əsl iç üzüdür.

Göründüyü kimi, bu gün qüdrətli Azərbaycan işğaldan azad olunan ərazilərimizi həm də erməni vəhşiliyindən, faşizmindən xilas edir. Bu baxımdan, 27 il sonra Kəlbəcər rayonunun işğaldan azad edilməsi Azərbaycan üçün həm strateji, həm siyasi, həm də iqtisadi baxımdan böyük qələbədir.

***Yaqut Ağaşahqızı***

## Azərbaycan XİN: Senatın qəbul etdiyi qətnamənin hüquqi qüvvəsi yoxdur



Öncə qeyd etmək istərdik ki, Fransa Senatında qəbul edilmiş "Dağlıq Qarabağ Respublikasının tanınması zərurəti" adlı qətnamə təklifi bir qrup qatı ermənipərəst senator tərəfindən irəli sürülüb. Azərbaycan Respublikasının Fransadakı səfiri qətnamənin səsvermədən bir gün öncə Senatın dinləmə prosedurlarına uyğun olaraq Senat üzvləri qarşısında çıxış edib və qətnamə təklifi ilə bağlı, burada əks olunan birtərəfli və həqiqətə uyğun olmayan məqamlarla bağlı ətraflı məlumat təqdim edib. Buna rəğmən Senat tərəfindən tamamilə qərəzli qətnamənin qəbul edilməsi, yalnız təxribat kimi qiymətləndirilə bilər. Görünür, Fransa ermənilərı münaqişə mövzusundan seçki məqsədləri üçün geniş şəkildə istifadə edirlər.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin şərhində yer alıb. Vurğulamaq istərdik ki, Senatın qəbul etdiyi qətnamənin hüquqi qüvvəsi yoxdur. Lakin qətnamənin siyasi məna kəsb etdiyini nəzərə alaraq, vasitəçi mandatı daşıyan bir ölkənin belə bir qətnamə ilə çıxış etməsi ölkənin bitərəfliliyini ciddi şübhə altına alır. Bu, həmçinin Azərbaycan ictimaiyyətində Fransanın ədalətli vasitəçi nüfuzuna xələl gətirir.

Əlbəttə, onun da qeyd etməliyik ki, Fransa Respublikasının münaqişənin həlli ilə bağlı rəsmi mövqeyi dövlətin yüksək səviyyəli rəsmiləri, o cümlədən ölkə Prezidenti və xarici işlər naziri tərəfindən səsləndirilib. Fransa Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bu mövqe istər ikitərəfli çərçivədə, istərsə də Avropa İttifaqı ilə imzalanan sənədlərdə öz əksini tapıb. Fransanın Avropa və Xarici İşlər üzrə Nazirliyinin Senatda keçirilən müzakirələrdə çıxış edən dövlət katibi də rəsmi mövqeyi çıxışında ifadə etdi. Fransa Senatının qərəzli qətnamələr qəbul etmək əvəzinə bölgədə sülh, sabitlik və tərəqqiyə xidmət edən fəaliyyətlə məşğul olması həm Fransanın maraqlarına cavab verər, həm də bölgənin dayanıqlı inkişafına yardımçı olardı.

# Moskvadan qurtuluş umanlar

***Ermənistanın baş nazir müavininin rəhbərliyindəki İtkin Şəxslər üzrə İdarələrarası Komissiya, itgilərinə görə qüssədən dəli olmaq həddində olan insanlara kömək etmək üçün əlini hələ də ağdan qaraya vurmayıb. Keçən əsrin 70-ci illərində olduğu kimi, Ermənistanın SSRİ-nin tərkibində olduğu dövrlərdəki kimi hələ də vətəndaşlarının bir çox problemlərinə və ya respublika daxilində həlli tapılmayan məsələlərə görə yenə də ermənilər Moskvaya şikayət məktubları göndərdilər.***

İndi ermənilər, bu işğalçı ölkənin istər vətəndaşları, istərsə də səlahiyyətliləri, hakimiyyət təmsilçiləri dərk etməlidirlər ki, SSRİ çoxdan dağılıb və onlar Ermənistanı artıq 29 ildir müstəqil bir dövlət kimi dünyaya sırımaq istəyirlər. Amma, görünən odur ki, erməni cəmiyyəti hələ də köhnəlmiş təcrübədən qurtula bilmir. Ermənistan ictimaiyyəti hələ də "böyük qardaşları" olaraq qəbul etməyə davam etdikləri Ruslardan qurtuluş və hər şeyə görə kömək umurlar. Belə olan halda hansı müstəqillikdən dəm vurur, hansı suverenlikdən danışır, hansı dövlətçilik barədə cəfəngiyyatlar səsləndirirlər?



Qarabağdakı döyüşlər zamanı itkin düşən əsgərlərin onlarla, hətta yüzlərlə valideynləri Rusiyanın Ermənistandakı səfirliyi qarşısında aksiya keçirir, Rusiyadan, şəxsən bu ölkənin prezidenti olan Putindən yardım, kömək istəyirlər. Səfirliyə vəsatət məktubu göndərənlər Rusiyanı hərbi qulluqçuların tapılması istiqamətində daha aktiv addımlar atmağa çağırırlar. Bəziləri səfirlikdəki konsulla görüşə gedərək, uşaqlarının axtarışında kömək barədə Rusiya Prezidenti Vladimir Putinin diqqətinə çatdırmasını xahiş edirlər. Müstəqil bir dövlət kimi özünü təqdim edən bir ölkənin vətəndaşlarının belə bir addımı, həmin ölkənin hökuməti üçün də, elə həmin ölkənin vətəndaşları üçün də ütancvericidir.

Xatırladaq ki, Putinə kömək üçün müraciət edənlərin əksəriyyəti yaşlı nəslin nümayəndələridir. Yəni, o adamlardır ki, onillər ərzində rusların köməyinə nəinki ehtiyac duyublar, bu kömək sayəsində varlıqlarını qoruyublar, problemlərinin həllinə nail olublar. Bundan hansı nəticələr çıxarmaq olar? İlk nəticə budur ki, ermənilər hələ də "böyük qardaşlarına" dərin ehtiyac duyurlar, baxmayaraq ki, imkan düşəndə onları təhqir edir, onlardan imtina etdiklərini utanmadan bəyan edirlər. Amma, reallıq budur ki, həqiqətən də ermənilərin bütün problemlərini elə ruslar, Rusiya dövləti, onun səlahiyyətliləri həll ediblər və etməkdə də davam edirlər hələ də. Elə sonuncu Qarabağ döyüşlərinin, müharibəsinin daha acı nəticələrindən, erməni əsgərlərinin qırğınlarından da, fəlakətindən də erməniləri ruslar, Rusiya dövləti, bu dövlətin prezidenti Putin xilas etdi. Doğrudur, ermənilərin qədirbilməz, nankor xislətləri özünü bir daha təsdiq etdi və küçələrə çıxan insanlar, etirazçılar, təşəkkür etmək əvəzinə rus səlahiyyətlilərini, ələlxüsus bu ölkənin prezidentini tənqid atəşinə tutaraq, qınadı da. Halbuki, "böyük qardaşları" onların son nəfəsində yetişdilər və nəfəslərinin kəsilməsi ərəfəsində onları Azərbaycan Ordusunun bir növ əlindən aldılar ki, buna görə şikayətlənmək əvəzinə, minnətdar olmalı idilər.

Çox maraqlı bir etnosdur bu qaraçı hay tayfaları və bir gün öncə hədəfə alaraq, bütün nalayiq ifadələr ünvanladığı liderdən dərhal yalvarışla kömək istəyə bilirlər və buna görə utanmırlar da. Elə bil simasızlıq, mövqesizlik bu tayfanın alnına yazılıb və tarixin hər dönəmində bunu nümayiş etdirmək məcburiyyətində də qalırlar. Ölkəsində rus dilinə qadağa qoyanlar, rusları Qərbə satanlar dara düşən kimi yenə onlara əl açırlar. Döyüş zonasında qalan cəsədlərin əldə edilməsi, itgin düşənlərin axtarılması və ümumiyyətlə, hərbçisinin taleyi ilə, onun valideynlərinin haqlı tələbləri ilə bağlı ən adi məsələləri həll edə bilməyənlər, müstəqillik dedikdə ağızlarına çullu dovşan sığmayanlar, amma yenə də ruslara üz tutdular ki, bunun rəzalət, rüsvayçılıq, simaasızlıq, aşağılıq və sair kimi arzuolunmaz adları var.

Görəsən erməni cəmiyyəti etdiklərinin fərqindədirmi və dərk edirmi ki, 30 ildir müstəqil olduğunu, hətta son dövrlərdə dırnaqarası demokratik bir dövlətə çevrildiklərini, yeni bir Ermənistan qurduqlarını bəyan etdikləri halda başqa bir dövlətə möhtac qalıblar? Möhtac olduqları təqdirdə hansı müstəqillikdən söhbət gedə bilər? Bu həm də onun göstəricisidir ki, təkcə 44 günlük müharibədə deyil, təkcə Nikol Paşinyan yox, onlar 30 il ərzində və btün rəhbərləri tərəfindən aldadılıblar. Necə ki, dırnaqarası "Böyük Ermənistan" xülyası, dırnaqarası "Dağlıq Qarabağ" adlı qondarma respublika, döyüşlər zamanı dırnaqarası "qələbə xəbərləri", eləcə də bütün mövcudluqları, varlıqları, dövlətçilikləri barədə də aldadılıblar və beyinləri doldurulub ki, indi bunun hər bir erməni fərqində olmalıdır, təbii ki, ağlı varsa. Əgər ağılları yoxdursa, yenə də nənələrinin "nağıllarına" qulaq asıb yuxuya dalsınlar və yuxularında gördüklərinin əksi olaraq ayıldıqlarında rastlaşdıqları fəlakətlərə görə "müstəqil dövlətlərinə" deyil, Rusiyaya əl açsınlar, yardım diləsinlər.

Məsələnin digər bir tərəfi də odur ki, yalan-doğru ermənilərin məskunlaşdığı Ermənistan adlı bu ərazidə bir dövlət var axı, hətta müstəqil olmasa belə. Niyə vətəndaşları bu dövlətdən problemlərinin həllini tələb etmirlər, Rusiyaya üz tutur, ruslara ünvanlanırlar? Bu hal bir sıra məqamlara aydınlıq gətirmirmi? Əlbəttə ki, gətirir. Bütün bunlar onu göstərir ki, müstəqillikləri başlarına dəysin, yalançı hökumətlərindəki dövlət qurumlarının belə işinin tamamilə iflic vəziyyətində olduğunu şübhəsiz olaraq hər bir erməni dərk edir və anlayır. Bu şəkildə qəbul etmək də adi hal alıb, necə ki, işğalçıların ölkəsinin prezidenti Armen Sarkisyan, "mən Qarabağla bağlı üçtərəfli saziş barədə mətbuatdan eşitdim", deyə fikirləri özü üçün də, cəmiyyətləri üçün də adi hal hesab olundu.

Ermənistanın hal-hazırda hökumət strukturları, Müdafiə Nazirliyi, Milli Təhlükəsizlik Xidməti, polisi, hamısı faydasız və köməksiz vəziyyətdədir ki, görünür bunu da ermənilər yaxşı-yaxşı görürlər. Məhz buna görə də, baş nazir müavininin rəhbərliyi altında olan, İtkin Düşənlərlə bağlı İdarələrarası Komissiyanın da mənasız, faydasız olduğunu dərk edən ermənilər ruslara yalvarmağa başlayıblar. Valideynlərə uşaqlarının harada olduğu və vəziyyətləri barədə ən qısa müddətdə məlumat verməli olan, daha doğrusu buna borclu dövlət qalıb bir tərəfdə, Rusiya dövlətinə kömək üçün yalvarışlar edilirsə, Ermənistan dövləti, özü də dırnaqarası "müstəqil" dövləti kimin nəyinə lazımdır? Ərazilərdə məskunlaşmaq üçün, yeni ərazilərin zəbt edilməsi, işğal edilməsi planlarının qurulması üçün, yoxsa, xəstə təxəyyüllərinə görə erməni əsillilərin qurban verilməsi üçün?

Hər hansı bir halda ermənilərin hamısının çətin anlar yaşadığı günün reallığıdır. Təkcə işğal altında saxladıqları və bunu qənimət hesab etdikləri torpaqlardan deyil, çox şeylərdən məhrum oldular. Çox sayda insan təlefatı ilə qarşılaşıb hərbi qüvvədən məhrum oldular ermənilər. Onillər boyu yığdıqları hərbi texnikadan, silah-sursatdan məhrim oldular ki, bu böyük bir maliyyə itgisi hesab olunur. Nəticədə iqtisadi geriləmələr və ümimiyyətlə iqtisadi tənəzzülə qarşılaşdılar. Hökumətləri isə bu qarşılaşmalar fonunda ancaq hakimiyyət uğrunda mübarizə və talan etdiklərinin xalqdan gizlətməklə məşğuldur. Ancaq ən dəhşətlisi budur ki, minlərlə Ermənistan vətəndaşı olan övladlarının dirisinin və ya ölüsünün tapılmasını yad və başqa bir dövlətdən kömək kimi istəməsi ilə ermənilər gələcəyə və dövlətinə inamdan məhrum oldu. Müstəqilliyinin olmasına inamdan məhrum oldular və həqiqətən də belə halda müstəqillikdən danışmağa dəyməz.

***İnam Hacıyev***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Siyasətdə AYAQQABI ilə CORABIN fərqi

***President Ağdama getdi və orada növbəti dəfə xalqı maraqlandıran bir sıra fikirlərini elə xalqın dilində də bəyan etdi. Bu çıxış bir daha isbatladı ki, O, xalqının OĞLUDUR, xalqının ADAMIDIR...***

Amma O, həm də xalqının milli-mənəvi və özəlliklə dini, islami ruhunun DAŞIYICISI, MÜHAFİZƏKARI olduğunu da sübuta yetirdi. Necə? Ali Baş Komandanımız və xanımı azad edilmiş Ağdamımızın "Cümə" məscidini ziyarətləri əsnasında - ayaqqabılarını çıxararaq, soyuq, daş-kəsəkli döşəmənin üzərində ibadətgahımıza daxil oldular, məscidin divarlarını öpərək, Məkkədən gətirilən müqəddəs Qurani-Şərifi məscidə gətirərək!

Bu barədə çox danışılacaq və çox fikirlər bildiriləcək, xüsusilə Prezidentimizin və xanımının sadəlikləri, xalqçılıq mahiyyətlərinin şərh olunması ilə. Lakin...

Lakin bugünlərdə bir çoxlarını düşündürən daha bir məsələ var: Əgər dövlət başçımız öz sadəliyi ilə, hətta heç bir xalçası, kilimi döşənməmiş, dağıdılmış, daş döşəməli məscidə tükənməz ehtiram hissi göstərib, ayaqqabılarını çıxarırsa, ora corabla daxil olursa, onda bəzi yüksək vəzifəli məmurlarımız nəyə görə istər şəhid evi olsun, istər aztəminatlı ailənin evi olsun, istərsə də dini ibadətgah, məscid olsun - ayaqqabı ilə daxil olurlar. Mən burada ad çəkib, məsələni birmənalı olaraq, konkret bəlli şəxslərin üzərinə yönəltməyi düşünmürəm, amma belə dövlət məmurlarımız kifayət qədərdir. Hər yerə ayaqqabı ilə daxil olmaq. Bu, ilk növbədə heç bir milli dəyərlərimizə cavab verməyən bir addımdır və inanmıram ki, onlar öz evlərində də ayaqqabı ilə gəzirlər. Bəlkə də gəzirlər, bu vasitə ilə özlərini "aristokratlar", "sosyetələr" zümrəsinə daxil edirlər, başqalarına bunu göstərməyə çalışırlar. Ancaq onlar əzəldənmi "aristokrat", yaxud "sosyetiklik" mücəssəməsinin daşıyıcıları olublar? Dədə-babaları, nənələrindənmi bunu görüblər? Əsla! Hər birimizin kökündə milli-əxlaqa, milli sosial dəyərlərimizə söykənən bir gerçəklik dayanır və bu gün həmin dəyərləri ayaq altına atıb, ayaqqabı ilə tapdalamağa heç kimin haqqı yoxdur, bax Prezidentimiz və xanımı öz möhtəşəm, sadəliyi nümayiş etdirən addımları ilə bu ismarıcı da bəzi məmurların diqqətinə çatdırdılar. Çatdırdılar ki, bütün vətəndaşlar - sosial durumundan, vəzifəsindən, rənqindən asılı olmayaraq eynidirlər, bərabərdirlər, heç bir ayrıseçkiliyə də yer yoxdur.

Hələ bir neçə il əvvəl ölkə rəhbərimiz çıxışlarında məmurlara xəbərdarlığını etmişdi, sonrakı illərdə də bunun şahidi olduq. Siyasi və kadr islahatları çərçivəsində qudurğan məmurlar cəzalarını aldılar, icra başçıları çirkin əməllərinə görə cəzalarını alaraq məsuliyyətə cəlb edildilər. İndi daha bir sual meydana çıxır: məgər dövlət başçımız ayaqqabı məsələsində də ayrıca fikir bildirməlidir ki, bəzi "sosyetik" məmurlar bunu anlasınlar və tapşırığa riayət etsinlər ki, millətin evinə ayaqqabı ilə daxil olmaq yumşaq desək, həmin ev sahibinin alçaldılması, ya da özlərini sadə vətəndaşdan üstün tutmaq cəhdidir?! Məgər bunun üçün "ayaqqabı və corab siyasəti" ətrafında bu fərqliliklər izah olunmalıdır?!

Yəqin ki, zaman-zaman hətta ən kiçik problemlər bütün detalları ilə həll olunacaq, insanların heysiyyatına, mənəviyyatına xələl vura biləcək hər bir addımlar incələnərək aradan qaldırılacaq, necə ki, bütün Azərbaycan xalqının 30 illik zədəli qüruruna Müzəffər Ali Baş Komandanımız, şanlı Ordumuz, əsgərlərimiz, zabitlərimiz 44 günlük qalibiyyət zəfərləri ilə məlhəm oldular. Yerdə qalanını isə, məhz bu gün "ayaqqabı siyasəti" yürüdən bəzi məmurlar düşünsünlər, nəticə çıxarsınlar ki, "corab siyasəti" ilə aralarında nə qədər böyük bir fərq var!

# Bizim Paşinyanlar, yaxud...

### Xalqın gözü tərəzidir!



Azad edilmiş Qarabağın 30 il boyunca işğala səbəb olmasının, çaıb-talanmasının əsas günahkarlarının 90-cı illərin naşı siyasətçilərinin olması kimsəyə sirr deyil. Hakimiyyət qovğalarından tutmuş daxili hərc-mərcliklərə, silahlı qarşıdurmalara, vətəndaş müharibəsinə qədər cərəyan edən hər bir hadisənin arxasında xəyanət (!), satqınçılıq (!), yüksək vəzifə hərisliyi (!) kimi halların nəticəsi idi ki, 27-30 il sonra qəhrəmanlıq salnaməsi yazan Ordumuzun - əsgər və zabitlərimizin, şəhidlərimizin, qazilərimizin qanları bahasına azad olunmuş torpaqlarımız məhz həmin illərdə düşmən tapdağına məruz qalmışdı. Xüsusilə, Xalq Cəbhəsinin xarici ölkələrin xüsusi xidmət orqanlarına, fondlarına işləyən agentlərinin suçları hesabına yadelli düşmənin həyasızlıqları altında inləyən Qarabağımızın ah-naləsi eşidilmədi, itirildi. Və bütün bu böyük itkilər cəmi 1 illik (!) AXCP-Müsavat cütlüyünün iqtidarı zamanında baş verdi - torpaqlarımız hansısa gizli danışıqlar masalarında satıldı, amma o zamanlar yenicə yaradılmış ordumuzun mərd, igid əsgərləri, zabitləri bütün bunlardan xəbərsiz olaraq, son damla qanınadək döyüşdü, canını Qarabağda qoydu. Uğursuz və satqın hakimiyyət, eləcə də onun "liderləri" xalqın hiddəti, nifrini ilə qovulduqdan sonra adlarını "müxalifətçi" qoyaraq xəyanətkarlıq, satqınçılıq xislətlərini davam etdirməyə başladılar - ora-bura işləməklə, şərböhtanlar atmaqla, "millət" şüarları altında erməni dəyirmanına su tökməklə.

Təbii ki, onlara sərf etməyən daha bir fakt Ulu Öndər Heydər Əliyevin xalqın dəstəyi, tələbi, çağırışı ilə hakimiyyətə gəlməsi idi. Və nə yaxşı ki, Heydər Əliyev Azərbaycanın xilaskarlıq missiyasını öz çiyinlərinə aldı. Əks halda, bugünlərdə biz Gəncəni də, Mingəçeviri də, digər bölgələrimizi də, bütövlükdə isə Azərbaycanı itirməli olacaqdıq, bu birmənalıdır!



### Erməni baş nazirinin mövcud halını vaxtilə AXCP-Müsavatın halını yaşaması kifayət qədər deməyə zəmin yaradır - bu gün ermənilərin Paşinyanı varsa, bizim də Paşinyanlar var

Bunun isə daha bir səbəbi var və həmin səbəbi hazırda kapitulyasiyaya uğramış, çalxalanan, dağılan Ermənistanla eyniləşdirmək kifayət qədər mümkündür. Daha dəqiq desək, əgər 27-30 il əvvəl Azərbaycanda hansı hadisələr baş verirdisə, bu gün bu hadisələr çarəsiz qalmış məğlub Ermənistanda təkrarlanır. Səbəb isə Sorosdur, amerikalı milyarder, rəngli, yaxud qeyri-rəngli inqilablar, qanlar, qadalar hesabına külli maddiyyatlar əldə edən Corc Soros. Və çünki bu gün Ermənistanın baş naziri Nikol Paşinyan Sorosun vasitəsi ilə hakimiyyətə gəlsə də, artıq ikiillik hakimiyyətini itirmək üzrədir. Bənzərliklər çoxdur, ancaq bir bənzərlik erməni xalqına müyəssər olmayacaq - onların ümummilli liderləri olmayıb və bundan sonra da olacağı mümkün deyil. Bunun üçün gərək köklü, tarixi olan bir xalq olasan. Bizim isə Ulu Öndərimiz, Ümummilli Liderimiz Heydər Əliyev adlı əbədiyaşar liderimiz və Onun layiqli siyasi varisi, Azərbaycan xalqının Müzəffər Ali Baş Komandanı, Sərkərdəsi, alternativsiz Lideri İlham Heydər oğlu Əliyevimiz var!!!

Eləcə də, erməni baş nazirinin mövcud halını vaxtilə AXCP-Müsavatın halını yaşaması kifayət qədər deməyə zəmin yaradır - bu gün ermənilərin Paşinyanı varsa, bizim də Paşinyanlar var, onlar Xalq Cəbhəsinin, müsavatçıların tör-töküntülü "liderləri", "başbilənləridirlər".

Ali Baş Komandan: "Bilməyənlər bilsinlər və gənc nəsil bunu bilsin, kim bizi bu bəlaya saldı? Kim bu bəlanın səbəbkarıdır? Kim bir milyon insanın ağır vəziyyətə düşməsinin səbəbkarıdır? O vaxtkı Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti"

Beləliklə, keçək bu mətləblərin izahına və bu izahları məhz cənab Prezident İlham Əliyevin Kəlbəcərin işğaldan azad olunması ilə bağlı çıxışı ilə şərh edək. Dövlət başçımız çıxışı əsnasında vurğuladı ki, əgər Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə gəlməsəydi, Azərbaycan nəinki öz qalan torpaqlarını itirəcəkdi, ümumiyyətlə, dövlətçilik əldən gedəcəkdi: "Öz laxlamış hakimiyyətlərini (AXCP-Müsavat cütlüyünü) saxlamaq üçün vətəndaş müharibəsi başlamışdılar. Öz əsgərlərini əsir götürmüşdülər. Gəncəni bombalamışdılar. Bunu heç kim unutmasın! Bilməyənlər bilsinlər və gənc nəsil bunu bilsin, kim bizi bu bəlaya saldı? Kim bu bəlanın səbəbkarıdır? Kim bir milyon insanın ağır vəziyyətə düşməsinin səbəbkarıdır? O vaxtkı Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti".

Məgər belə deyilmi? Məgər bu ifadələrin hər birinin altından qalın və qırmızı xətlər çəkmək olmazmı? Əlbəttə ki, olar və lazımdır - gələcək tarixlərimizə həkk olunması üçün, gələcək nəsillərimizə izah etmək üçün zamanında kimlərin satqın, xəyanətkar, dövlət düşməni olduğunu, kimlərin isə xilaskar, müzəffər qalib olduqlarını anlatmaq üçün...

### Budur məntiqi reallıq, danılmaz gerçəklik və tandem!

Yenidən qayıdaq Paşinyanlar məsələsinə. Dövlət başçımız çıxışında qeyd etdi ki, Xalq Cəbhəsinin "başbilənləri" heç bir siyasi savadları olmayan, müxtəlif yerlərdən, küçələrdən toplaşmış adamlar olublar. Necə ki, hərbi xidmət keçməyən, jurnalistlikdən o tərəfə haqlaya bilməyən, siyasi savadı olmayan, ora-bura şər atan, sonunda isə Sorosun qucağında (xalqının deyil!) hakimiyyətə yiyələnən Nikol Paşinyan kimi. Burada da mütləq mənada cənab İlham Əliyevin fikrini sitat gətirmək tam yerinə düşür: "Əslində, indi paralel aparsaq, onların obrazı elə bil kollektiv Paşinyandır - savadsız, biliksiz, iradəsiz, qorxaq, fərari, idarəetmədə heç bir təcrübəsi olmayan, xarici dairələrin təsiri altında olan, onların əli ilə idarə olunan və öz ölkəsini məhv edən. Bax, kollektiv Paşinyandır onlar. Onları tanımayanlar, əgər onlar haqqında hər hansı bir təsəvvür yaratmaq istəsələr, Paşinyana baxsınlar. Onun addımlarına baxsınlar və onun simasında o vaxtkı Azərbaycan Xalq Cəbhəsinin və ölkə rəhbərliyinin simasını görəcəklər".

Budur məntiqi reallıq, danılmaz gerçəklik və tandem! Yəqin ki, dövlət başçımızın bu çıxışından narahat olanlar tapılacaq və tapılır da. Amma beləl追 narahatlıqları xalqı narahat etmir. Çünki xalqın gözündə onların ələkləri-ələnib, xəmirləri isə yoğrulub. Xalqın gözü isə tərəzidir...

**Rövşən RƏSULOV**



**İLHAM**

## Bəşəriyyətə təhlükə olan erməni vandallığına qarşı həmrəy olaq!

***Erməni vandalizmi və barbarlığı 30 ilə yaxın müddətdə işğal altında olmuş Azərbaycanın bütün ərazilərində özünü göstərib. İşğal edilən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam, Kəlbəcər və digər ərazilərimizdə yaşı min illərə bərabər olan dini, tarixi, mədəni abidələrin, məscidlərin ermənilər tərəfindən dağıdılması, Azərbaycan xalqının milli-mənəvi yaddaşına zərbə vurmaq, bəşəriyyətə düşmənçilik deməkdir. Törədilən vandallıq həm də onu göstərir ki, erməni faşistləri dini, mədəni və tarixi dəyərlərə böyük nifrət bəsləyirlər. Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, erməni faşistləri işğal zamanı Azərbaycana məxsus onlarla tarixi abidəni, məscid və mədəni irs nümunələrini yer üzündən siliblər. Bəzi nümunə kimi saxladıqları məscidlərdə isə donuz və mal-qara saxlayıblar. Misal olaraq Ağdam, Cəbrayıl, Qubadlı, Zəngilan cümə məscidlərində mal-qara saxlanılması üçün tövlə kimi istifadə edilməsini, Şuşa şəhərindəki Aşağı və Yuxarı Gövhərağa, Köçərli, Mərdinli məscidlərinin dağıdılmasını göstərmək olar. Bu kimi ürək ağrıdıcı faktlar ümumilikdə müsəlman dünyasına, dini dəyərlərə hörmətsizlikdir.***

Müvafiq dövlət qurumlarından aldığımız məlumata görə, işğal altındakı Azərbaycan torpaqlarında 403 tarixi-dini abidələr olub ki, onlardan da 67-si məscid (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8), 144-ü məbəd, 192-si ziyarətgahdır. İşğal ərazisində yerləşmiş 67 məscidin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Yaşı 300-350 min olan ilk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları vandallığa məruz qalıb. Həmçinin, qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli, dini, tarixi dəyərlərimiz məhv edilib. Bütün bunlar "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasının, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının tələblərinin erməni vəhşiləri tərəfindən kobud şəkildə pozulması deməkdir. Ermənistanın 30 il ərzində Azərbaycanın işğal edilən ərazilərində törətdiyi vəhşiliklərə sentyabrın 27-dən sonra Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə güclü və qüdrətli Azərbaycan ordusu son qoydu və bununla da qaranlığa bürünən torpaqlarımıza günəş doğdu.

Ölkə Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Cəbrayıl, Füzuli, Ağdam şəhərlərinə və özündə min illik tarix yaşadan Xudafərin körpüsünü ziyarət etmələri milli varlığımıza qürurlu anlar yaşatdı. Ağdam şəhərində olan Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yerin nəmli və soyuq olmasına baxmayaraq, ayaqyalın məscidə daxil olmaları onların milli dəyərlərimizə böyük dəyər verdiklərini bir daha nümayiş etdirdi. Prezident İlham Əliyev Ağdam məscidinə Məkkədən gətirdiyi "Qurani-Kərim"i bağışlayaraq demişdir: "Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq. Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək, bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq. Heç kim bizə kömək etməyib. Əksinə, ancaq maneçilik törədib. Gün gələcək bu barədə də ətraflı danışacağam".

Bəli, Prezidentimizin və xalqımızın dualarını Ulu Tanrı eşitdi və erməni barbarlarından torpaqlarımız azad olundu. Biz artıq Cəbrayıldayıq, Füzulidəyik, Zəngilandayıq, Qubadlıdayıq, Şuşadayıq, Ağdamdayıq, Kəlbəcərdəyik, bir sözlə, biz Qarabağdayıq. Əminəm ki, dünya birliyi erməni vəhşiliyindən və vandallığından kifayət qədər məlumatlıdır. Bu baxımdan, Azərbaycan xalqının mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsi olduğundan dünya birliyi, demokratik düşüncəli dünya xalqları erməni vandallarının ciddi şəkildə cəzalandırılması üçün öz səslərini qaldıracaqlar.

***Azərbaycan tarixən müxtəlif millətlərin, fərqli din mənsublarının dinc yanaşı yaşadığı, milli və dini tolerantlığın bərqərar olduğu ölkə olub. Burada hər bir xalqın və dinin nümayəndələri sülh və mehribanlıq şəraitində yaşayıblar. Bu tarixi ənənə bu torpaqlarda böyük və zəngin mədəniyyətin yaranmasına, vahid dəyərlərin formalaşmasına səbəb olub. Azərbaycanda yaşayan bütün insanlar belə görüb, belə tərbiyə olunub, belə yaşayıb. Məhz buna göər də, bu gün Azərbaycan öz multikultural cəmiyyət sistemi, vahid ümumi dili, ümumi mədəniyyəti, ümumi mənəvi-psixoloji dəyərləri ilə dünyaya nümunədir.***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliği" istiqaməti çərçivəsində hazırlanıb.*

# Azərbaycançılıq: əsas prinsiplər və strateji proqramlar

*Qloballaşan dünyada milli-mənəvi dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır-* ***Heydər Əliyev***

II YAZI

### Vətəndaşlıq azərbaycançılığın əsas elementi kimi

1-ci yazıda da qeyd etdiyimiz kimi, Azərbaycançılığın əsas elementlərindən biri vətəndaşlıqdır. 30 sentyabr 1998-ci il tarixli "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanunun 1-ci maddəsinə əsasən vətəndaşlıq hüququ insanın ölkədə hüquqi statusunu müəyyən edən norma kimi başa düşülür. Konstitusiyanın 52-ci maddəsinə görə, "Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır".

Azərbaycanın müasir inkişaf mərhələsində vətəndaşlıq insanların şüurunun qiymətləndirici əsasını, cəmiyyətdə davranışının motivasiyasını təşkil edən və onların siyasi maraqlarını əks etdirən amildir. Hər bir vətəndaş dövlət quruculuğunda iştirak edir. Bu onun aktiv və passiv seçki hüququ vasitəsi ilə həyata keçirilə bilər. Vətəndaşın bu mövqeyindən dövlətin gücü, dövlət quruluşunun sabitliyi, fərdlə dövlət, cəmiyyətlə hakimiyyət arasındakı sıx əlaqə, nəhayət insanların sosial rifahı asılıdır.

Vətəndaşlığın əsas elementlərinə mənəvi və hüquqi mədəniyyəti, dövlət hakimiyyətinə münasibəti, cəmiyyət və dövlət qarşısında məsuliyyəti və ən əsası öz vəzifələrini yerinə yetirmək bacarığını aid etmək olar. Qısa desək, vətəndaşlıq özündə vətəndaşın siyasi, mənəvi, hüquqi, sosial keyfiyyətlərini cəmləşdirir.

Vətəndaşlıq azərbaycançılığın əsasını təşkil edir. Vətəndaşlıq kollektiv qərarların qəbul olunmasında vacib amildir. O Azərbaycançılığın tərkib hissəsi olan vətəndaşlıq mövqeyi Azərbaycan əhalisinin bir xalq kimi birləşməsinə və dövlətçilik kursu ilə inkişafına əhəmiyyətli zəmin yaradır.

### Vətənpərvərlik bütün ideoloji prinsiplərin fövqündədir

İdeologiya olaraq Azərbaycançılıq mühüm funksional elementlərlə zəngindir və ölkənin mənəvi, sosial və hüquqi inkişafına, bütün vətəndaşların azad və əmin-aman yaşamasını təmin etməyə xidmət edir. Bu ideologiya inzibati-ərazi quruluşuna görə unitar, siyasi quruluş və dövlət idarəçiliyinə görə hüquqi və demokratik, sosial-iqtisadi formasına görə sərbəst işgüzar fəaliyyət məkanı və sosial dövlət kimi Azərbaycanın möhkəmlənməsinə və inkişafına yönəlir.

Azərbaycançılığın fundamentində dayanan əsas prinsiplərdən biri olan Vətənpərvərlik hər bir vətəndaşı öz dövləti, öz xalqı ilə sıx bağlayır. Bu hiss etnik, dini, siyasi, sosial mənsubiyyətindən asılı olmayaraq eyni torpaqlarda yaşayan hər bir insanı öz torpağına, Vətəninə sahib çıxmağa səsləyir. Yeri gələndə isə, ümumi vətən uğrunda düşünmədən canını qurban verir. Biz bunu 2-ci Qarabağ müharibəsində də əyani şəkildə gördük. Vətənpərvərlik vətəndaşlıq mövqeyindən əzəli məfhumdur. Qeyd etməliyik ki, bu 2 məfhumun fərqi var. Vətəndaşlıq fərdin öz dövlətinə münasibətini təcəssüm etdirirsə, vətənpərvərlik insanın öz ailəsinə, xalqına, vətəninə hərtərəfli bağlığının göstəricisidir. Bütün bunlar isə bütün xalqın ümumi dəyərləri əsasında mümkün olur.

Azərbaycançılıq konsepsiyası bu gün cəmiyyətin inkişafının və dövlətin siyasətinin ideya təməlini təşkil edir. Azərbaycançılıq ideyasını dövlətçiliyimizin ideoloji əsası kimi xarakterizə edən Prezident İlham Əliyev deyir: "Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli-mənəvi dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır".

### İlham Əliyev: Azərbaycan bütün dünya azərbaycanlılarının vətənidir

Heydər Əliyevin yenidən bərqərar etdiyi Azərbaycançılıq ideyasının rəhbər tutduğu əsas prinsiplər Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qorunur və uğurla inkişaf etdirilir. Xüsusən də, dünya azərbaycanlılarının vahid ideoloji kontekstdə birləşməsi və Azərbaycanın dünyada təbliğində xüsusi rol oynamaları əsas vəzifələrdən biri kimi götürülüb.

2016-cı il iyunun 3-də Bakıda dövlət başçısının təşəbbüsü ilə keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayında 49 ölkədən 500-dən çox diaspor nümayəndəsi və qonaq iştirak edirdi. Bu qurultay dünyanın müxtəlif ölkələrinə səpələnmiş 50 milyon nəfərdən artıq azərbaycanlının bir araya gəlməsində mühüm rol oynayaraq azərbaycançılığın böyük tarixi imkanlara, birləşdirmə, səfərbər etmə gücünə malik olduğunu bir daha sübut etmiş oldu.

Azərbaycan Prezidenti İlham Əliyev bu məsələyə diqqəti bir daha cəlb edərək həmin qurultayda çıxışında bildirib: "İlk növbədə əlbəttə, biz istəyirik ki, dünyada yaşayan azərbaycanlılar öz tarixi Vətənləri ilə əlaqələri heç vaxt kəsməsinlər. Daim əlaqədə olsunlar, Azərbaycan ilə bağlı olsunlar. Beləliklə, onlar özlərini daha da rahat hiss edəcəklər. Belə olan halda Azərbaycan dövləti onlara daha da böyük dəstək verə biləcək. Hazırda xaricdə yaşayan azərbaycanlıların sayı milyonlarla ölçülür. Əlbəttə ki, onlar yaşadıqları ölkələrin vətəndaşlarıdır. Mən çox istəyirəm ki, onlar yaşadıqları ölkələrdə daha da böyük mövqelərə nail ola bilsinlər. Yaşadıqları ölkələrin ictimai, siyasi, iqtisadi həyatında daha da fəal rol oynasınlar".

Eyni zamanda, dövlət başçısı bildirdi ki, diaspor təşkilatları ilə səfirliklər arasında möhkəm əlaqələr olmalı və bu əlaqələr güclənməli, o cümlədən xarici ölkələrdə dövlət, hökumət, qanunvericilik orqanlarında Azərbaycan diaspor nümayəndələrinin sayı daha da çox olmalıdır. Bu, əlbəttə, bizim torpaqlarımızı işğal edən, vətəndaşlarımıza terror və soyqırım aktları həyata keçirmiş bir düşmənə qarşı informasiya və təbliğat müharibəsində çox vacibdir.

### 2-ci Qarabağ müharibəsində qalib gələn ideologiya

Qeyd etməliyik ki, bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da xarici dairələrin maraq və mənafelərini müdafiə edən, ölkəmizin siyasətinə kölgə salmağa, daxili qarşıdurmalar yaratmağa çalışan şəxslər var. Adətən xarici qüvvələrin Azərbaycanla bağlı hər hansı bir planını onların ölkəmizdəki əlaltıları qloballaşma, inteqrasiya pərdəsi altında maskalamağa cəhd edirlər. Bu pərdə altında yad dəyərləri, yad ideologiyaları cəmiyyətimizə yeritmək istəyirlər.

Azərbaycançılıq ideologiyası belə qüvvələrin qarşısında keçilməz bir sədd kimi dayanmağa qadir olan yeganə ideologiyadır. Qloballaşma adı altında milli-mənəvi dəyərlərimizi məhv etməyə çalışan qüvvələr xalqımızın sarsılmaz birliyi və dövlətin apardığı ədalətli siyasət sayəsində buna nail ola bilmirlər.

Azərbaycan Prezidenti İlham Əliyev regionların inkişafına həsr olunmuş sonuncu konfransda qloballaşmanın pərdəarxasını açıq şəkildə göstərdi və Azərbaycanın öz milli, mədəni, mənəvi dəyərləri əsasında, başqa sözlə Azərbaycançılıq ideologiyası əsasında inkişaf edəcəyini bildirdi. Xalqımız da son dövrlərin təcrübəsindən göründüyü kimi, öz dəyərlərini qoruyub saxlamaqda əzmlidir. Bir sözlə dövlətin və cəmiyyətin bu məsələdə fikri yekdildir.

Bu milli birlik, vətəndaş həmrəyliyi 2-ci Qarabağ müharibəsində öz nəticəsini verdi. Bütün xalqımız dövlətimizin yanında birləşərək düşmənə qarşı həm öz, həm arxa cəbhədə mübarizə apardı. Diasporamız isə dünya ölkələrində informasiya və təbliğat müharibəsi apardı. Nəticədə bu birlik və həmrəylik qalib gəldi və Azərbaycan öz işğal olunmuş torpaqlarını geri qaytardı. Bundan sonra Azərbaycançılıq ideologiyasının qarşısında başqa vəzifələr var- Azərbaycanı dünyanın ən inkişaf etmiş abad, gözəl, güclü ölkəyə çevirmək, Azərbaycan xalqını daha yüksək intellektli, daha yüksək mədəniyyətli, daha sosial təminatlı cəmiyyətə çevirmək. Buna da milli liderimiz İlham Əliyevin rəhbərliyi ilə qısa zamanda nail olacağıq.

***Elçin Bayramlı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

26 noyabr

# Səs

Son səhifə

## İbrahimoviç: "50 yaşımda da "Qızıl top"u qazanacam"



"Milan"ın futbolçusu Zlatan İbrahimoviç 12-ci dəfə İsveçdə "Qızıl top" mükafatını almağa münasibət bildirib. Qol.az "Afronbladet"ə istinadən xəbər verir ki, o, ölkəsinin ən yaxşı oyunçusu seçilməsi ilə bağlı deyib:

"Adətən azarkeşlərin 12-ci oyunçu olduğunu deyirlər. Bu, mənim 12-ci "Qızıl top"umdur. Ona görə bu azarkeşlər üçün olacaq. Onların stadionlara gəlib futboldan zövq almasına icazə verilməməsi ayıbdır. Karyeramı boş tribunalar qarşısında bitirə bilmirəm. 39 yaşım var və "Qızıl top" qazandım. 50 yaşımda da mükafatı qazanmağı planlaşdırıram".

## "Qalatasaray"ın prezidenti şəhid əsgərimizdən danışdı: "Nur içində yatsın"



*"Qalatasaray"ın prezidenti Mustafa Cengiz şəhid olmuş Fərid Dursonov barədə danışıb. O, "İHA" agentliyinə açıqlamasında deyib:*

"Komandaya azarkeşlik etmək izah olunmaz hissdir. Yağışda, palçıqda, piyada oyuna gələn insanlar var. Tutqu budur! Fərid Dursunovun atası ilə danışdım. Bakıdan çox uzaq yerdə yaşayırlar. Allah heç kimə övlad acısı verməsin. Sıra ilə ölüm versin. Atəş düşdüyü yeri yandırar. Atası Fazil bəy ilə danışdım, çox sevindi. Eyni duyğuları mən də yaşadım. "Övladım yaşasaydı çox xoşbəxt olardı". İnsan sadəcə maddi şeylərlə yaşaya bilməz. Bu şəhidimiz bizi çox duyğulandırdı. Milli duyğuları bir araya gətirdi. Nur içində yatsın. Allah qəni-qəni rəhmət eləsin".

Qeyd edək ki, daha əvvəl "Qalatasaray" klubu Fərid Dursunov və Murad Məmmədovla bağlı paylaşım edib. Paylaşımında azarkeşi olan Dursunov, həmçinin digər şəhidlərimizə Allahdan rəhmət diləyib və Fəridin "Qalatasaray"la bağlı vəsiyyəti xatırlayıb : "Şəhid olsam məzarıma Azərbaycan bayrağı ilə birlikdə "Qalatasaray" bayrağını asın" deyə vəsiyyət edən və vəsiyyəti yerinə yetirilən şəhid Fərid Dursunovla birlikdə bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik".

## İstisu çeşməsindən hər il 3 milyard 963 milyon litr su çıxır



Bəzi mənbələrdə Kəlbəcəri "çay üstündə qala" adlandırırlar və bu, onun ölkəmizdə ən yüksək dağ rayonlarından biri olması ilə əlaqədardır. Rayonun yerləşdiyi ərazidə çoxlu şəfalı bulaqlar var. Onlardan biri də füsunkar görkəmi və faydası ilə dünyanın ən faydalı müalicə mərkəzinə çevrilən İstisu bulağıdır. İstisu bulağı zəlzələ nəticəsində yaranıb və çox böyük şəfa ocağı sayılır.

AZƏRTAC tibbi mənbələrə istinadla xəbər verir ki, İstisu bulağından çıxan suyun tərkibində orqanizm üçün çox faydalı olan elektrolitlər və minerallar sayılan litium, sink, maqnezium var. Bu suyun müalicəvi əhəmiyyətini artıran onun temperaturunun 58 dərəcəyə qədər və hər litrində 7 qrama qədər digər lazımlı minerallar və elektrolitlərlə zəngin olmasıdır. İstisu mənbələrindən hər il çıxan 3 milyard 963 milyon litr suyun yalnız 2 milyon litrindən istifadə olunur və qalan hissəsi çaylara axır.

Bir çox xəstəliklərin müalicəsində mühüm rol oynayan İstisu 12 çeşmədən ibarətdir. Maqnezium tərkibinə görə dünyanın ən məşhur su mənbələrindən olan Sloveniyada Roqaşka, Çexiyada Karlovı Varı və Rusiyada Mineralnıye Vodı ərazisində olan mineral sularla müqayisə etmək olar və tərkibinə görə daha zəngindir.

## Qaynanmış su içməyin bizə faydası varmı?



***İnsanların əksəriyyəti suyun kirli olduğunu düşünərək onu qaynadıb içir. Aşağıda yazılanları oxusanız qaynayan zaman suda nələr baş verdiyini öyrənmiş olarsınız. Əminəm ki, bundan sonra siz bir də qaynanmış su qəbul etməzsiniz.***

**1. Su qaynadıqda onun tərkibində olan kalsium, maqnezium, karbonat və digər minerallar çaydanın divarlarına yapışır. Yəni suyun tərkibi mineralsızlaşır.**

**2. Su qaynadıqda onun tərkibindəki oksigen buxarlanır. Bu səbəbdən də su ağırlaşır. Su nə qədər çox qaynayarsa, o qədər də ağır olur. (Sənayedə ağır suyu əldə etmək üçün onu uzun müddət qaynadırlar.) Ağır su isə hüceyrələr tərəfindən pis sorulur. Yəni qaynanmamış su hüceyrələri daha yaxşı qidalandırır.**

**3. Davamlı olaraq qaynadılmış su içən adamların dərilərinin rəngi solğun, saçları cansız olur.**

**4. Suya qatılan xlor qaynadıldıqda başqa birləşməyə çevrilir ki, bu da orqanizm üçün zərərli sayılır.**

**5. Aparılan araşdırmalar çiy su içənlərin fiziki aktivliyinin qaynamış su içənlərin fiziki aktivliyindən yüksək olduğunu müəyyən etmişdir.**

**Çiy su içməkdən çəkinənlərə mütəxəssislər mütəlif su filtirlərindən istifadə etməyi məsləhət bilir.**

## Şamaxıda birmərtəbəli ev yanıb



Şamaxıda birmərtəbəli evdə yanğın baş verib. Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, rayonun Göylər Dağ kəndində ümumi sahəsi 390 kvadratmetr olan birmərtəbəli tikilinin dam örtüyünün 140 kvadratmetri yanıb. Tikilinin qalan hissəsi və alov yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.

## Füzulidə ölümlə nəticələnən yol qəzası olub



Füzuli rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Füzuli rayonunun Əhmədbəyli kəndi ərazisində kənd sakini S.Əsgərovun idarə etdiyi "QAZel" və Horadiz şəhər sakini Elmir Ağayevin idarə etdiyi "Mercedes" markalı avtomobillər toqquşub. Nəticədə E.Ağayev aldığı xəsarətlərdən hadisə yerində həyatını itirib. Füzuli Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600